№ 17 (1012) 26 aprel - 2 may 2018-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet    Qiyməti razılaşma yolu ilə    Qəzet 1999-cu ildən çıxır

# İKİTƏRƏFLİ MÜNASİBƏTLƏRİMİZ UĞURLA İNKİŞAF EDİR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına rəsmi səfər edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 24-də Türkiyə Respublikasına rəsmi səfəri çərçivəsində Ankaradakı Heydər Əliyev Parkında ulu öndərin abidəsini ziyarət edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 25-də Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəyə - Anıtqəbirə gəlib. Dövlətimizin başçısı böyük Atatürkün məzarını ehtiramla ziyarət edib, Xatirə kitabına ürək sözlərini yazıb.

* * * *

Aprelin 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Böyük Millət Məclisinin sədri İsmayıl Qəhrəman ilə görüşüb.

Görüşdə İsmayıl Qəhrəman Prezident İlham Əliyevin Türkiyəyə rəsmi səfərindən məmnunluğunu bildirib.

Türkiyə parlamentinin sədri dövlətimizin başçısına prezident seçkilərində parlaq qələbə qazanması münasibətilə təbriklərini çatdırıb: "Sizin böyük səs çoxluğu ilə qalib gəlməyiniz bizi şərəfləndirdi. Prezident İlham Əliyev təkcə öz ölkəsi üçün deyil, bölgə və dünya üçün də mühüm şəxsiyyətdir".

Prezident İlham Əliyev səmimi təbriklərə görə Türkiyə Böyük Millət Məclisinin sədrinə minnətdarlığını bildirib.

Dövlətimizin başçısı bu səfərin əlaqələrimizin inkişafında yeni mərhələ olacağına əminliyini vurğulayıb.

Görüşdə ikitərəfli münasibətlərimizin uğurlu inkişafından məmnunluq ifadə edilmiş, parlamentlərarası əməkdaşlığın əlaqələrimizin genişlənməsinə töhfə verdiyi qeyd olunmuşdur.

Söhbət zamanı Azərbaycanın və Türkiyənin regionda əməkdaşlığa və təhlükəsizliyə verdiyi töhfənin, ölkələrimizin birlikdə qlobal əhəmiyyətli böyük strateji layihələr həyata keçirməsinin əhəmiyyəti qeyd olunub.

* * * *

Aprelin 25-də Ankarada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təkbətək görüşü olub.

* * * *

Aprelin 25-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VII iclası keçirilib.

## Azərbaycan ilə Rusiya arasında iqtisadi əlaqələr yüksək səviyyədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 23-də Rusiya Federasiyasının iqtisadi inkişaf naziri Maksim Oreşkini qəbul edib.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən iqtisadi sahədə uğurla inkişaf etdiyi qeyd olunmuşdur.

Ötən il, eləcə də bu ilin ilk rübünün nəticələrinə əsasən ticarət dövriyyəsinin artmasını iqtisadi əlaqələrimizin genişlənməsinin yaxşı göstəricisi kimi dəyərləndirən Prezident İlham Əliyev bunun ümumilikdə ikitərəfli münasibətlərimizin inkişafının yaxşı göstəricisi olduğunu vurğulamışdır. Dövlətimizin başçısı ölkələrimizin birgə səmərəli fəaliyyəti nəticəsində iqtisadi əlaqələrin möhkəmləndiyini, eləcə də ayrı-ayrı müəssisələr arasında əməkdaşlığın gücləndiyini demişdir. Prezident İlham Əliyev iqtisadi əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə etmişdir.

Maksim Oreşkin bir daha prezident seçkilərində inamlı qələbəsi münasibətilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təbriklərini dövlətimizin başçısına çatdırmışdır. O qeyd etmişdir ki, seçkilərin nəticələri Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi və iqtisadi kursa xalq tərəfindən verilən möhkəm dəstəyin təzahürüdür və Azərbaycanda hökm sürən sabitlik böyük önəm daşıyır. Rusiyalı qonaq qeyd etmişdir ki, hətta Bakıya son gəlişindən keçən bir neçə ay ərzində iqtisadi əməkdaşlıq istiqamətində irəliyə doğru bir sıra ciddi addımlar atılıb. Maksim Oreşkin azərbaycanlı həmkarları ilə birgə məhsuldar fəaliyyətin həyata keçirildiyini məmnunluqla vurğulamışdır.

Söhbət zamanı Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi, investisiya, kənd təsərrüfatı, turizm və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.



# Novruz Məmmədov Azərbaycanın Baş naziri vəzifəsinə təyin edildi



Aprelin 21-də Azərbaycan Respublikası Milli Məclisinin növbəti plenar iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin sədri Oqtay Əsədov aprelin 11-də demokratik və şəffaf şəraitdə keçirilmiş prezident seçkilərində İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsinin dövlətimizin başçısının xalqımız qarşısındakı əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin və ona sonsuz inamın ifadəsi olduğunu söyləyib.

Parlament sədri Milli Məclis adından Prezident İlham Əliyevi təbrik edib və dövlətimizin başçısına fəaliyyətində uğurlar arzulayıb. Bildirib ki, Prezident İlham Əliyevin andiçmə mərasimini Milli Məclisdə keçirməsi dövlətimizin başçısının parlamentə verdiyi dəyərin və hörmətin göstəricisidir.

Oqtay Əsədovun təklifi ilə Milli Məclis adından Prezident İlham Əliyevə təbrik məktubunun göndərilməsi qərara alınıb.

Milli Məclisin sədri deyib ki, bugünkü iclasın gündəliyinə bir məsələ daxildir. İclasda "Novruz İsmayıl oğlu Məmmədovun Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi" haqqında məsələyə baxılacaq.

Sonra sədr gündəlikdəki məsələ ilə bağlı Prezident İlham Əliyevin Milli Məclisə məktubunu oxuyub. Oqtay Əsədov qeyd edib ki, Novruz Məmmədov bütün fəaliyyəti dövründə özünü yüksək ləyaqətə malik insan kimi təsdiq edib. Novruz Məmmədovun fəaliyyəti hər zaman Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib.

Sonra məsələ ilə bağlı müzakirələr aparılıb.

Çıxış edən Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli aprelin 11-də Azərbaycanda şəffaf və ədalətli seçkilərin keçirildiyini bildirib, Prezident İlham Əliyevi parlaq qələbəsi münasibətilə təbrik ediblər.

Qeyd olunub ki, Azərbaycanın Baş naziri vəzifəsinə namizədliyi irəli sürülmüş Novruz Məmmədov beynəlxalq arenada ölkəmizin maraqlarını hər zaman müdafiə edən şəxslərdəndir. Diplomatik karyerasında ən yüksək zirvəyə yüksəlmiş Novruz Məmmədov Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü kimi də fəaliyyətində böyük uğurlara imza atıb. O, ölkəmizin daxili və xarici siyasəti, dövlətimizin başçısının apardığı iqtisadi və sosial siyasətlə bağlı dərin məzmunlu çıxışların, məqalələrin müəllifidir. Novruz Məmmədov bütün fəaliyyəti dövründə dövlətimizin milli strategiyasına, ümummilli liderə, prezidentə sədaqət nümunəsi göstərib.

Çıxışlarda Baş nazir kimi fəaliyyəti dövründə göstərdiyi xidmətlərə görə Milli Məclis adından Artur Rasi-zadəyə də təşəkkür edilib.

Müzakirələrdən sonra məsələ səsə qoyularaq qəbul edilib.

İclasda çıxış edən Baş nazir Novruz Məmmədov ona göstərilən bu yüksək etimada görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib. O deyib ki, Baş nazir vəzifəsi çox çətin, lakin şərəfli vəzifədir. Dövlətimizin başçısı İlham Əliyev ilə birlikdə işləmək çox şərəflidir.

Novruz Məmmədov vurğulayıb ki, Azərbaycan bu gün dünya miqyasında özünün yeri, mövqeyi olan bir ölkədir. Azərbaycan ən mürəkkəb geosiyasi məkanda yerləşir. XXI əsrin ikinci onilliyində dünyada gərgin proseslərin getdiyi belə bir vəziyyətdə Azərbaycanda sabitliyin, təhlükəsizliyin və uğurlu dinamik inkişafın davam etdirilməsi bizim hər birimizin qarşısında çox böyük vəzifələr qoyur. Biz yüksək səviyyəli inkişafımızı davam etdirməliyik. Bu, çox çətin vəzifədir. Çalışacağam ki, bu məsuliyyətli vəzifəni Azərbaycan Prezidentinin rəhbərliyi ilə, dövlət və hökumət strukturları, eyni zamanda, Milli Məclis ilə sıx əməkdaşlıq şəraitində yerinə yetirim. Çalışacağam ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolu Azərbaycan Prezidentinin rəhbərliyi ilə davam etdirək.

Hazırda Azərbaycanın çox yüksək inkişaf mərhələsində olduğunu vurğulayan Baş nazir deyib: "Mən xarici siyasətlə çox məşğul olduğum üçün beynəlxalq aləmdə dövlətlərlə bağlı mövqeləri yaxşı bilirəm. Azərbaycan fəal iştirakçı və təşkilatçı kimi bu illər ərzində siyasi, enerji, idman, mədəniyyət, multikulturalizm sahələrində dünyanın ən böyük layihələrini uğurla həyata keçirib. Azərbaycan beynəlxalq əməkdaşlığa çox böyük töhfələr verib. Bir neçə ilə Azərbaycan Avrasiyanın ən böyük nəqliyyat qovşağı olacaq. Hindistandan Avropanın şimalına, Şərqdən Qərbə, Avropanın cənubuna qədər bütün ölkələrin ticari, iqtisadi əlaqələrinin qovşağı məhz Azərbaycan olacaq. Bu, həm də Azərbaycanın gələcək inkişafını təmin edir. Mənim qarşımda duran əsas vəzifə Azərbaycanın iqtisadi sahədə bu günə qədər əldə etdiyi uğurların istiqamətlərini daha da konkretləşdirmək, hansı islahatların daha vacib olduğunu, qarşıda bizi nələrin gözlədiyini nəzərə alaraq addımlar atmaqdır. Şübhəsiz ki, Azərbaycan Prezidentinin rəhbərliyi altında dövlət, hökumət strukturları, eləcə də Milli Məclisin üzvləri ilə birlikdə biz bu vəzifələrin öhdəsindən gələcəyik".

Novruz Məmmədov vurğulayıb ki, Azərbaycan artıq çox böyük layihələr həyata keçirib, siyasət, iqtisadiyyat, enerji, idman, mədəniyyət sahələrində böyük uğurlara imza atıb. Bütün bu işləri təhlil etsək görərik ki, dünyanın heç bir ölkəsi Azərbaycanla müqayisə oluna, ölkəmizlə rəqabət apara bilməz. Azərbaycan beynəlxalq təşkilatlarda çox fəal iştirak edir. Ölkəmiz siyasi, mədəni, idman, sivilizasiyalararası dialoq, multikulturalizm sahələrində mötəbər tədbirlərə ev sahibliyi edir. Azərbaycan 120 ölkəni özündə birləşdirən, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına 2019-2021-ci illərdə sədrlik edəcək. Azərbaycan Prezidenti daxili və xarici siyasəti, beynəlxalq münasibətlər sahəsini mükəmməl bilən müdrik dövlət xadimidir. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, müstəqil Azərbaycan öz tarixində ən möhtəşəm dövrünü yaşayır.

Baş nazir Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin onun qarşısında qoyduğu vəzifələrin həyata keçirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.

Milli Məclisin sədri Oqtay Əsədov sonda bir daha Novruz Məmmədovu təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

"Azərbaycan Xalq Cümhuriyyəti İli" 100

# AZƏRBAYCAN VƏTƏNDAŞLIĞI HAQQINDA QANUN



Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşlıq normalarını müəyyən edən qanunvericilik aktı 1919-cu il avqustun 11-də Azərbaycan Xalq Cümhuriyyəti Parlamenti tərəfindən qəbul edilmişdir. Qanun 4 bölmədən ibarət idi:

1. Vətəndaşlığın müəyyən edilməsi;
2. Vətəndaşlığın verilməsi;
3. Vətəndaşlığın itirilməsi;
4. Azərbaycan vətəndaşlığı haqqında 1918-ci il 23 avqust tarixli Əsasnamənin qüvvədən düşməsi.

Qanunun birinci bölməsinin 1-ci maddəsinə əsasən, milliyyətindən və dini mənsubiyyətindən asılı olmayaraq, özləri və ya valideynləri Azərbaycan Xalq Cümhuriyyəti ərazisində doğulmuş keçmiş Rusiya imperiyası vətəndaşları Azərbaycan Xalq Cümhuriyyətinin vətəndaşları hesab olunurdu.

Qanuna görə, Azərbaycan vətəndaşlarından doğulanlar, Azərbaycan vətəndaşlarına ərə getmiş xarici vətəndaşlar, 17 yaşı tamam olmamış və Azərbaycan vətəndaşı tərəfindən övladlığa götürülmüş xarici vətəndaşlar Azərbaycan Xalq Cümhuriyyəti vətəndaşı hüququ qazanırdılar. Xarici vətəndaşa ərə getmiş Azərbaycan vətəndaşı boşandıqda, 17 yaşına çatmamış Azərbaycan vətəndaşının xarici vətəndaşdan doğulmuş övladı, elmi və digər istedadı ilə Azərbaycana xüsusi xidmət göstərmiş və Azərbaycana köçmüş xarici vətəndaş, Azərbaycanda hərbi və mülki xidmətdə olan xarici vətəndaş da Azərbaycan vətəndaşlığı hüququ əldə edirdi. Azərbaycan vətəndaşlığını qəbul edən hər bir şəxs Azərbaycan dövlətinə sədaqət barədə Əsasnamədə olan xüsusi mətn əsasında and içməli idi (bax, Vətəndaşlıq haqqında and).

Azərbaycan vətəndaşı başqa ölkənin vətəndaşlığını qəbul etdikdə, o, Azərbaycan vətəndaşlığı hüququnu itirirdi. Azərbaycan vətəndaşlığından çıxmaq istəyən şəxslər yerli dairə məhkəmələrinin inzibati bölməsinə ərizə ilə müraciət etməli və öz ərizələrində hansı ölkənin vətəndaşlığını qəbul etdiklərini bildirməli idilər.

Azərbaycan vətəndaşlığından çıxmış şəxs yenidən Azərbaycan vətəndaşlığına qayıtmaq barədə yalnız 5 ildən sonra ərizə ilə müraciət edə bilərdi.

İcazəsiz olaraq xarici vətəndaşlığı qəbul etmiş şəxslər isə yalnız Cümhuriyyət hökuməti daxili işlər nazirinin xüsusi icazəsi ilə yenidən Azərbaycan vətəndaşlığını qəbul edə bilərdilər.

Əd.: Азербайджанская Демократиская Республика (1918-1920), Законодательные акты (сборник документов), Б., 1998.

# "Mühasibat uçotu haqqında" qanuna dəyişiklik olunur

Aprelin 23-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında bir sıra qanun layihələrinə təklif olunan dəyişikliklər müzakirə edildi.

Komitənin sədri Ziyad Səmədzadə bildirdi ki, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "İctimai televiziya və radio yayımı haqqında", "Bank olmayan kredit təşkilatları haqqında", "İnsanın immun çatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda texniki dəyişikliklər edilir. Belə ki, sözügedən sənədlərin "Reklam haqqında" qanuna uyğunlaşdırılması təklif olunur.

İclasda maliyyə nazirinin müavini Emin Hüseynov "Mühasibat uçotu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında məlumat verdi. O qeyd etdi ki, layihəyə Nazirlər Kabinetinin 5 iyun 2015-ci il tarixli 215 nömrəli Qərarı ilə təsdiq edilmiş "İri, orta və kiçik sahibkar meyarları"nın tələblərinin nəzərə alınması, habelə mühasibat uçotu sahəsində fəaliyyət göstərən mütəxəssislərin fəaliyyətinin tənzimlənməsi məqsədilə bir sıra yeni anlayışlar əlavə edilib. Eyni zamanda, layihəyə mühasibat uçotu subyektlərində mühasibat uçotu xidmətinin təşkil edilməsi, mühasibat uçotunun aparılması, mühasibat uçotuna əsasən maliyyə, vergi və digər hesabatların tərtib edilməsi ilə bağlı müvafiq müddəalar, eləcə də bir sıra hüquqi şəxslərin baş mühasiblərinin peşəkar mühasiblər olmaları barədə tələblər daxil edilib.

Bildirildi ki, peşəkar mühasib sertifikatının əldə edilməsi baş mühasiblərin bilik və bacarıqlarının artırılması ilə nəticələnməklə mühasibat uçotunun aparılması, maliyyə hesabatlarının tərtib edilməsi işlərinin daha təkmil səviyyədə təşkilinə təkan verəcək.

Komitə üzvləri qanuna təklif edilən dəyişikliklərlə bağlı fikirlərini səsləndirdilər.

İclasda, həmçinin "Müflisləşmə və iflas haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi də müzakirə olundu. Layihə borclunun ləğv edilməsinə maksimum yol verməmək üçün sağlamlaşdırma tədbirlərinin tətbiqinə imkanlar və mexanizmlər yaratmaq məqsədilə hazırlanıb. Bu da iş yerlərinin saxlanmasına, ödəmə qabiliyyətinin bərpasına və kreditorların tələblərinin daha dolğun ödənilməsinə imkan yaradacaq.

Müzakirə edilən bütün məsələlər Milli Məclisin plenar iclasına tövsiyə olundu.

# TAP-ın Yunanıstan və Albaniya marşrutunda işlər davam edir

Azərbaycan təbii qazını Avropaya daşıyacaq "Trans-Adriatik" (TAP) qaz boru kəmərinin Yunanıstan və Albaniya marşrutunda boruların 87 faizi qaynaq edilib.

Bu barədə boru kəmərinin operatoru olan TAP AG şirkəti məlumat yayıb. Bildirilir ki, TAP-ın 765 kilometrlik Yunanıstan və Albaniya hissəsində 670 kilometr boru qaynaq olunub.

"Albaniyada tikinti işləri davam etdirilir. Skrapar isə TAP-ın yüksəkliyi 1800 metr olan ən hündür hissəsidir", - deyə məlumatda bildirilir.

Xatırladaq ki, ilin əvvəlində Avropa İnvestisiya Bankının İdarə Heyəti Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək, İtaliyanın təbii qaz şəbəkəsinə qoşulmaq üçün Cənubi İtaliya sahillərinə çıxan TAP boru kəməri üçün 1,5 milyard avro məbləğində maliyyələşdirməni təsdiqləyib. Bank bildirir ki, layihə Cənub Qaz Dəhlizinin bir hissəsidir və Avropa İttifaqının enerji siyasəti çərçivəsində strateji cəhətdən əhəmiyyətli bir komponent kimi, Avropa Şurası, Avropa Komissiyası və Avropa Parlamenti tərəfindən müəyyən edilən təşəbbüsdür.

Qeyd edək ki, TAP qaz boru kəməri layihəsi üzrə işlərin - mühəndis, təchizat və tikinti işləri də daxil olmaqla ümumilikdə 68,7 faizi yekunlaşıb. Boru kəmərinin 765 kilometrlik Yunanıstan və Albaniya hissəsinin 610 kilometrində borular torpağa basdırılıb.

Beləliklə də TAP-ın Yunanıstan və Albaniya marşrutunun 80 faizi tamamlanıb. Bu hissədə torpaq örtüyünün 52 faizi əvvəlki vəziyyətinə gətirilib. TAP-ın 215 kilometrlik Albaniya hissəsində 150 kilometr boru xəndəyə endirilib.

İndiyədək Cənub Qaz Dəhlizinə daxil olan layihələrdə "Cənub Qaz Dəhlizi" QSC-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə 9 milyard dollar investisiya qoyulub. Bu vəsaitin 0,7 milyard dolları TAP layihəsinə xərclənib.

Boru kəmərinin Adriatik dənizindən keçəcək 105 kilometrlik hissəsinin tikintisini həyata keçirəcək İtaliyanın "Saipem S.p.A" şirkəti hazırda mikrotunel sahələrində çalışır.

Burada müvəqqəti yol və sahə hazırlığı tamamlanıb. TAP-ın podratçısı hazırda mikrotunelin tikintisini həyata keçirmək üçün çuxurun qazılması işlərini görür. TAP-ın keçdiyi 3 ölkədə işçilər 61,5 milyon kilometr yol qət edib və 22,5 milyon nəfər-saat iş görülüb. Layihə qrafikə uyğun icra edilir və TAP 2020-ci ilədək Azərbaycanın "Şahdəniz" yatağından ilk qazı almağa hazır olacaq.

TAP Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan "Cənub Qaz Dəhlizi"nin bir seqmentini təşkil edir. Boru kəmərinin təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Layihənin ümumi dəyəri 4,5 milyard avro olacaq. "Şahdəniz" konsorsiumu ilk qaz satışını 2018-ci ildə Türkiyəyə və Gürcüstana həyata keçirəcək.

Avropaya ilk qazın verilməsi isə bundan təxminən 1 il sonra 2020-ci ilin əvvəllərində planlaşdırılır.

Boru kəmərinin uzunluğu 878 kilometr (Yunanıstan - 550 kilometr, Albaniya - 215 kilometr, Adriatik dənizi - 105 kilometr, İtaliya - 8 kilometr), diametri isə 48 düymdür (sualtı hissə - 37 düym).

Boru kəmərinin ən aşağı hissəsi dəniz səviyyəsindən təxminən 820 metr dərinlikdə, ən yüksək hissəsi Albaniya dağlarında 1800 metr hündürlükdən keçəcək. 2020-ci ilədək layihə üzrə Azərbaycan şirkətlərinin xərclərinin 1,2 milyard dollar olması gözlənilir.



# Prezident İlham Əliyevin iqtisadi inkişaf strategiyasının əsas istiqamətləri

*İnsanların həyat şəraitini yaxşılaşdırmaq qarşıda duran ən böyük vəzifədir. Bunu etmək üçün bizim hər cür imkanımız və yetərincə möhkəm iradəmiz var. Əminəm ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və digər ölkələrə nümunə olacaqdır. Mən Azərbaycanı belə görmək istəyirəm.*

*İlham Əliyev*



**Ramiz Mehdiyev**
**Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki**

**(əvvəli ötən sayımızda)**

Müasir dünya dövlətləri bir-birləri ilə artıq hərbi deyil, çox hallarda məhz iqtisadi üsul və vasitələrlə mübarizə aparırlar. Azərbaycanın iqtisadi cəhətdən geniş manevretmə imkanları ona gələcəkdə bəzi dövlətlərə öz şərtlərini diktə etmək üçün şərait yaradır. Prezident İlham Əliyevin müasir dünya düzəninin iqtisadi və siyasi "oyun qaydaları"na dərindən bələd olması ölkəmizin maraqlarının bütün səviyyələrdə etibarlı şəkildə qorunmasına təminat verir.

### İQTİSADİ GÜC DAĞLIQ QARABAĞ PROBLEMİNİN HƏLLİNDƏ TƏSİRLİ VASİTƏ KİMİ

Təxminən 30 ildir ki, müstəqil Azərbaycan Respublikası keçmiş İttifaq dövlətinin miras qoyduğu Dağlıq Qarabağ münaqişəsinə cəlb edilib. Separatizm meyilləri keçmiş İttifaqın başqa respublikalarını da əhatə etsə də, bu proses Azərbaycanda olduğu kimi, ağrılı və uzunmüddətli xarakter daşımamışdır. Artıq imperiya buxovundan azad olmuş müstəqil dövlətimiz hazırda bütün səylərini təkcə dövlət quruculuğunun həyata keçirilməsinə və milli iqtisadiyyatımızın formalaşdırılmasına deyil, həm də Dağlıq Qarabağ probleminin həllinə yönəldir.

Bu problem ümummilli məsələ olduğuna görə siyasi mənsubiyyətindən, tutduğu vəzifədən asılı olmayaraq, bütün ölkə vətəndaşlarını düşündürür və narahat edir. Artıq onilliklərdir ki, münaqişənin həllində Ermənistan qeyri-konstruktiv mövqe tutur, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinə məhəl qoymur və münaqişənin həllinə əngəl yaradır. Keçmiş SSRİ-nin rəhbərliyi anlamalı idi ki, Ermənistanın "səpdiyi" separatçılıq və işğalçılıq toxumu İttifaqın digər respublikalarını və regionlarını da əhatə edəcək və bu, gələcəkdə idarəolunmaz prosesə gətirib çıxaracaq. Lakin İttifaq rəhbərliyinin, şəxsən Qorbaçovun Dağlıq Qarabağ probleminin həllində qətiyyətli və ədalətli mövqe tutmaması nəticəsində separatizm meyilləri dərinləşdi və münaqişə zəncirvarı prosesə çevrildi.

Ermənistan ayrı-ayrı xarici dövlətlər tərəfindən "bəslənildiyi" və himayə olunduğu halda, Azərbaycan heç bir xarici dəstək olmadan inkişaf edərək özünü müstəqil bir dövlət kimi təsdiq etməkdədir. Ölkəmizdə dövlət quruculuğu Ermənistandan fərqli olaraq, həmişə milli xarakter daşıyıb. Yəni, Azərbaycan öz müstəqil dövlətini yalnız öz gücü və daxili potensialı hesabına qurub və bu gün də ölkənin siyasi rəhbərliyi müstəqil dövlət quruculuğunu milli əsaslar üzərində və milli maraqlarımıza uyğun olaraq həyata keçirir.

2016-cı ilin aprel döyüşləri göstərdi ki, Ali Baş Komandandan sıravi ölkə vətəndaşlarınadək hər bir kəs ən son anda hərbi güc tətbiq etməklə torpaqlarımızın erməni işğalından azad edilməsinə hazırdır. Bu döyüşlər xalqımızda mübarizlik və vətənpərvərlik ruhunun nə qədər yüksək olduğunu bir daha təsdiq etdi.

Prezident İlham Əliyev işğal olunmuş torpaqlarımızı erməni təcavüzkarlarından azad etmək üçün istənilən vaxt hərbi gücdən istifadə ediləcəyini bildirir. O, həm də Ermənistanı işğalçı mövqedən çəkindirmək üçün iqtisadi təzyiq üsullarından geniş istifadə edilməsi fikirlərini də səsləndirir. Bu, o deməkdir ki, Dağlıq Qarabağ probleminin həllində hərbi güclə yanaşı, iqtisadi gücdən, iqtisadi diplomatiyanın imkanlarından bundan sonra da maksimum istifadə ediləcəkdir.

Milli iqtisadiyyatımızın inkişafı və dövlətin maliyyə imkanlarının artması fonunda ordumuzun maddi-texniki bazası da möhkəmləndirilir, hərbi xərclərimiz ilbəil artır. Ali Baş Komandan ordu potensialımızın gücləndirilməsini suveren hüququmuz olaraq dəyərləndirir və dövlətimizin ərazi bütövlüyünü bərpa etmək naminə bu hüquqdan istifadə ediləcəyini açıq şəkildə bəyan edir.

İqtisadi müharibədə Azərbaycanın mövqeyinin getdikcə güclənməsini nəzərə alaraq, onun daha sərt və sistemli bir şəkildə davam etdirilməsini zəruri hesab edirik. Artıq dünyada əks mövqedə dayanan ölkələr bir-birlərini silahla deyil, əsasən iqtisadi vasitələrlə zəiflətməyə üstünlük verirlər.

Prezident İlham Əliyev öz çıxışlarında Ermənistanla Azərbaycan iqtisadiyyatının müqayisəsini heç də təsadüfən aparmır: "Ərazilərimiz azad olunmayınca, Ermənistanla heç bir əməkdaşlıq etməyəcəyik. Ermənistan belə bir əməkdaşlığı çox arzulayır, buna çalışır... Biz Ermənistanla əməkdaşlıq etmədən də uzun illər, on illərlə gözəl yaşaya bilərik. Kommunikasiyaların açılmaması, regional proseslərdən kənarda qalması isə Ermənistana baha başa gələcəkdir. Onlar diasporun köməyinə, hər hansı başqa xarici mənbələrin maliyyələşdirməsinə nə qədər ümid bəsləyə bilərlər? Ölkə özü-özünü dolandıra bilmir. O, həmişə xaricdən gələn hansısa maliyyə mənbələrindən asılıdır. Azərbaycan isə ərazilərinin işğal edilməsinə, bir milyon qaçqının olmasına baxmayaraq, inkişaf edir və edəcəkdir"[9]. Xatırladaq ki, Ermənistan əvəzsiz yardımlardan və ya ianələrdən asılı vəziyyətdə olan ölkələrin siyahısında hər il, bir qayda olaraq "liderlər" sırasında yer alır.

Ekspertlərin təxmini hesablamalarına əsasən, Ermənistanın Azərbaycan torpaqlarına hərbi təcavüzü nəticəsində ölkəmizin iqtisadiyyatına yüz milyardlarla ziyan vurulmuşdur. Hazırda Ermənistan işğal etdiyi ərazidə kənd təsərrüfatı və sənaye potensialından, yerüstü və yeraltı təbii sərvətlərdən maksimum faydalanmağa çalışır.

MDB məkanında iqtisadi diplomatiya sahəsində Azərbaycan qədər geniş manevretmə imkanlarına malik olan ikinci ölkə yoxdur. Biz bu imkanlardan hərbi münaqişənin həllində maksimum istifadə etməliyik. İqtisadi diplomatiya və iqtisadi gücün tətbiq edilməsi bir çox hallarda siyasi diplomatiyadan və hərbi gücün tətbiqindən daha təsirli və dağıdıcı olur. Məhz bu baxımdan ölkəmizin iqtisadi siyasətində Ermənistanla hərbi münaqişə amili nəzərə alınır, işğalçı ölkəyə qarşı iqtisadi təzyiqin müxtəlif forma və üsullarından istifadə edilir.

Hərbi münaqişənin həllində iqtisadi diplomatiyanın imkanlarından istifadə edilməsi həm də böhran məngənəsində sıxılmaqda olan Ermənistanın sosial-iqtisadi vəziyyətinin davamlı olaraq təhlilini tələb edir. Fikrimizcə, Ermənistan iqtisadiyyatının ən zəif nöqtələri müəyyənləşdirilməli, işğalçı dövlətə qarşı iqtisadi gücün tətbiq edilməsinin cari və strateji istiqamətləri müəyyən edilməlidir.

Azərbaycan sovet imperiyası buxovundan azad olmaqla öz sərvətləri üzərində mülkiyyət hüququ əldə etdi. Bu isə iqtisadi potensialımızın dövlətçiliyimizin gücləndirilməsi və milli tərəqqi üçün istifadə edilməsinə zəmin yaratdı. Ermənistanda isə əksinə, sosial-iqtisadi problemlərin kəskinləşməsi dövrü başlandı.

Ermənistan digər keçmiş İttifaq respublikaları kimi dövlət müstəqilliyi əldə etsə də, iqtisadi cəhətdən buna hazır deyildi. Keçmiş sovet məkanında "ələbaxan" respublikalardan biri olan Ermənistanın birdən-birə müstəqillik qazanması onun üçün ciddi sosial-iqtisadi problemlərlə nəticələndi. Məlum olduğu kimi, SSRİ-nin vahid xalq təsərrüfatı kompleksindən daha çox Ermənistan faydalanırdı. Belə ki, onun ucuz enerji, xammal və ilkin emal məhsulları ilə təchizatı, istehsal edilən sənaye məhsulları üçün təminatlı və sabit satış bazarına malik olması, respublika büdcəsinin İttifaq büdcəsi hesabına subsidiyalaşdırılması Ermənistanın problemlərinin həllində əhəmiyyətli rol oynayırdı.

Keçmiş İttifaq respublikaları tərəfindən 1991-ci ildən etibarən qiymətlərin liberallaşdırılması Ermənistanı həm də ucuz xammal və yanacaq-enerji bazarından məhrum etdi. Məlum olduğu kimi, işğalçı ölkənin sənayesinin 50 faizi keçmiş SSRİ-nin hərbi sənaye kompleksindən asılı idi. Bir tərəfdən İttifaq büdcəsindən hərbi-sənaye kompleksi üçün mərkəzləşdirilmiş büdcə xərclərinin azaldılması, digər tərəfdən də Rusiyada hərbi yönümlü sənaye müəssisələrinin tədricən konversiya edilməsi, yəni istehsal yönümünün dəyişdirilməsi Ermənistandakı müəssisələrin əksəriyyətinin fəaliyyətinin tamamilə dayanmasına, bəzilərinin öz istehsal gücünün 15-20 faizi səviyyəsində işləməsinə səbəb oldu. Bu proses nəticəsində Ermənistan təkcə 1993-cü ildə 1992-ci illə müqayisədə sənaye məhsulu istehsalının 60 faizini, ərzaq məhsulları istehsalının isə 50 faizini itirdi.

Nə qədər təzadlı olsa da, keçmiş sovet məkanına daxil olan digər respublikalardan fərqli olaraq, Ermənistanda dövlət müstəqilliyinin əldə edilməsi onun tərəqqisindən daha çox, tənəzzülünə xidmət etdi. Başqa sözlə, Ermənistanın siyasi "azadlığı" ona iqtisadi fəsadlar gətirdi. Bu, bir daha işğalçı ölkənin "müstəqil dövlətçiliyi"nin dərin tarixi köklərə malik olmadığını göstərdi.

Ermənistan dünyaya yaydığı informasiyalarda Azərbaycan və Türkiyə tərəfindən blokadaya alındığını bəyan edir. Bu, o deməkdir ki, Ermənistan Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf 7 rayonunu işğal etməsinə, Naxçıvanı blokadada saxlamasına baxmayaraq, ölkəmizin ərazisindən keçən nəqliyyat dəhlizlərindən istifadə etmək iddiasındadır.

Erməni separatizminə cavab olaraq, Azərbaycan Ermənistana gedən nəqliyyat dəhlizi vasitəsilə yük daşımalarını 1989-cu ildən etibarən dayandırmışdır. Sovet İttifaqı dövründə Ermənistanın yük dövriyyəsinin 90 faizi Azərbaycanın nəqliyyat infrastrukturu hesabına təmin edilirdi. Təkcə Ermənistanın idxal etdiyi malların 85 faizi Azərbaycandan keçən dəmir yolu vasitəsilə daşınırdı. Yanacaq ehtiyatlarının 80 faizini isə işğalçı ölkə ərazimizdən keçən qaz kəməri və dəmir yolu vasitəsilə idxal edirdi.

Ermənistanın Azərbaycandan asılılığını xarakterizə edən bu rəqəmlərə nəzər saldıqda, erməni separatçılarının öz ölkələri üçün nə qədər ciddi problem yaratdığı bir daha aydın olur. Ermənistan "xarici dəstəkdən" istifadə edərək Azərbaycan ərazisinin 20 faizini işğal etməklə, əslində çox şey itirdi. Hər şeydən əvvəl, neftin və qazın nəqlinə görə əldə edə biləcəyi sabit valyuta gəlirlərindən məhrum oldu. Gürcüstan kimi Ermənistan da Azərbaycanın həyata keçirdiyi transmilli enerji və nəqliyyat layihələrindən faydalana bilərdi...

Yeni ərazi davası aparan qonşumuzun sosial-iqtisadi problemlərinin kəskinləşməsi, hər şeydən əvvəl, onun regional iqtisadi inteqrasiya prosesində iştirak etməməsi ilə bağlıdır. Əgər Ermənistan ərazi iddialarından əl çəksəydi və Azərbaycanla Gürcüstanın, o cümlədən Türkiyənin birgə həyata keçirdiyi strateji iqtisadi layihələrə qoşulsaydı, xarici dövlətlərdən topladığı "ianələrdən" dəfələrlə artıq gəlir əldə edə bilərdi.

Ermənistan özünün neftə və qaza olan tələbatını bütünlüklə idxal hesabına ödəyir. Yəni, bu ölkənin xaricdən enerji asılılığı var. Azərbaycanla sərhədlərin bağlanması isə həmin enerji resurslarının nəqlini çətinləşdirir və xərcini artırır.

Azərbaycan işğalçı dövlətlə həm də iqtisadi gücün dili ilə danışır və Ermənistan bunun acı nəticələrini görməkdədir. Təsadüfi deyildir ki, erməni iqtisadçılar öz iqtisadiyyatlarının təhlili ilə bağlı hesabatların hər abzasında Azərbaycanın iqtisadi təzyiqinin doğurduğu nəticələrdən geniş bəhs edirlər.

Hər bir dövlətin başlıca vəzifəsi ölkə vətəndaşları üçün layiqli həyat səviyyəsini təmin etməkdən ibarətdir. Lakin Ermənistan hökuməti bu vəzifəni yerinə yetirmək əvəzinə, işğalçı və separatçı mövqeyi ilə öz vətəndaşlarını məhrumiyyətlər qarşısında qoyur. Vaxtilə "Dağlıq Qarabağ uğrunda mübarizə"yə qalxmış ermənilər, indi öz fiziki mövcudluğunu qoruyub saxlamaq üçün mübarizə aparırlar. Sosial vəziyyəti kəskinləşməkdə olan ermənilər vaxt gələcək özləri Ermənistan rəhbərliyini işğalçı və separatçı mövqedən çəkindirməyə məcbur edəcəklər. Əks halda, Azərbaycan tərəfdən Ermənistana qarşı iqtisadi gücün tətbiqinin davam etdirilməsi işğalçı ölkəni sosial partlayış həddinə gətirib çıxaracaq. Bunun da acı nəticələrini həm Ermənistan rəhbərliyi, həm Ermənistan vətəndaşları, həm də Qarabağ erməniləri hiss edəcək…

Müstəqillik əldə etdikdən sonra Ermənistanın iqtisadi problemləri təkcə Azərbaycanın iqtisadi təzyiqləri nəticəsində deyil, həm də bu ölkənin iqtisadi dayaqlarının zəifliyi ilə əlaqədar olaraq kəskinləşmişdir. Təsadüfi deyildir ki, beynəlxalq iqtisadi təşkilatlar öz analitik hesabatlarında işğalçı ölkəni iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələr qrupuna daxil edirlər.

Statistik məlumatların təhlili göstərir ki, Azərbaycan bir sıra makroiqtisadi göstəricilərə görə Ermənistanı dəfələrlə qabaqlayır. Hər bir dövlətin maliyyə təminatı onun büdcəsinin vəziyyəti ilə müəyyən edilir. Ermənistanda vergi bazasının ilbəil məhdudlaşması dövlət büdcəsinin icrası sahəsində ciddi problemlər yaratmaqdadır.

Dövlət büdcəsindəki gərginliyin nəticəsidir ki, Ermənistanın xarici borcu 2017-ci ildə kritik həddə - 5,4 mlrd. ABŞ dollarına çatmışdır. Bu, ÜDM-in təxminən 60 faizini təşkil edir. Müqayisə üçün qeyd edək ki, iqtisadi təhlükəsizlik baxımından kritik hədd 40 faiz hesab olunur.

Azərbaycanda və Ermənistanda xarici borcu təhlil edərkən bir cəhəti də nəzərə almaq lazımdır. Belə ki, beynəlxalq maliyyə təşkilatları borc vəsaitlərini ölkəmizə kredit qabiliyyətli olmasına, yəni bu borcu qaytarmaq üçün potensial valyuta ehtiyatlarına malik olduğuna görə ayırırlarsa, Ermənistan bu kreditləri xarici ölkələrdə fəaliyyət göstərən lobbisi hesabına əldə edir.

Milli iqtisadiyyatımızın xarici investorlar üçün daha cəlbedici olması Cənubi Qafqaz regionuna yatırılmış sərmayənin əsasən ölkəmizdə cəmləşməsinə şərait yaradır. Artıq Azərbaycan Qafqazın əsas ticarət və investisiya mərkəzinə çevrilməkdədir. Neft kapitalı da daxil olmaqla indiyə kimi Azərbaycana cəlb edilən xarici investisiyaların həcmi 2003-2017-ci illərdə 117,8 mlrd. ABŞ dolları təşkil etmişdir. Təsadüfi deyildir ki, ölkəmiz xarici investisiyaların adambaşına düşən həcminə və ÜDM-dəki payına görə bir çox ölkələri qabaqlayır.

Hər bir ölkənin iqtisadi təhlükəsizliyini xarakterizə edən əsas göstəricilərdən biri valyuta ehtiyatlarının həcmidir. Ermənistanda bu göstərici 2017-ci ildə 2,3 mlrd. ABŞ dolları təşkil etdiyi halda, Azərbaycanda bu rəqəm təxminən 42 mlrd. ABŞ dollarına çatır. Bu isə Ermənistanla müqayisədə 18 dəfə çoxdur.

Azərbaycan təkcə valyuta ehtiyatlarının həcminə görə deyil, həm də onun strukturuna və artım tempinə görə əlverişli mövqeyə malikdir. Valyuta ehtiyatlarının strukturunun təhlili göstərir ki, Ermənistan öz valyuta sərvətlərini əsasən xarici dövlətlərin ianələri və beynəlxalq maliyyə təşkilatlarının kreditləri hesabına formalaşdırır. Başqa sözlə, o, sabit valyuta gəlirlərinə malik deyil. Azərbaycan isə öz valyuta ehtiyatlarını əsasən qazanılmış, yəni ixracdan əldə edilən valyuta gəlirləri hesabına formalaşdırır.

İqtisadi təhlükəsizliyi xarakterizə edən başqa bir göstərici ölkənin enerji ilə təchiz olunma səviyyəsidir. 1989-cu ilədək Ermənistanın qazla təchizatını əsasən Rusiya, Türkmənistan və Azərbaycan həyata keçirirdi. Ermənistanın separatçı fəaliyyətinə qədər Azərbaycan Transqafqaz Enerji Sistemi çərçivəsində bu ölkənin enerji təchizatında həlledici rol oynayırdı. İndi isə işğalçı Ermənistanın enerji təminatının aşağı səviyyədə olması artıq bu ölkəni iqtisadi uçuruma yaxınlaşdırıb...

Hər hansı bir ölkənin sosial vəziyyətini və perspektivini əhalinin sayının artım tempi, başqa sözlə, demoqrafik meyillər müəyyən edir. BMT-nin statistik məlumatlarına əsasən, əhalinin orta illik sayı Azərbaycanda artdığı halda, Ermənistanda əksinə, hər il azalmışdır. Ermənistan üçün ciddi təhlükə doğuran bu meyil, həm də on minlərlə Ermənistan vətəndaşının ölkəni tərk etməsi ilə müşayiət edilir.

Hazırda Azərbaycan dünyanın qabaqcıl dövlətlərinin iqtisadi maraqlarını özündə birləşdirən regional strateji-iqtisadi mərkəzə çevrilib. Belə bir mövqenin qorunub saxlanılmasını ölkəmizin milli dövlətçilik maraqları tələb edir. Bu gün bizim başlıca məqsədimiz Azərbaycan Respublikasının bir dövlət kimi gücünü və qüdrətini daha da artırmaqdan, onun iqtisadi dayaqlarını möhkəmləndirməkdən ibarətdir. Bu, ona görə lazımdır ki, güclü Azərbaycan dövləti həm işğal olunmuş torpaqlarımızı azad etməyə, həm də ölkəmizin ərazi bütövlüyünü qorumağa qadir olmalı və bunun üçün özünün hərbi və iqtisadi potensialını daha da artırmalıdır.

### DÖVLƏT İDARƏÇİLİYİNİN PRİNSİPLƏRİ VƏ İNSTİTUSİONAL İSLAHATLAR

"Biz Azərbaycan xalqı üçün işləyirik. Onlar bizə bu etimadı göstəriblər və biz də bu etimadı doğrultmalıyıq..."[10]. Bu fikirlərlə İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti olaraq dövlət idarəçiliyi sahəsində əsas prinsipini bəyan etmiş oldu.

Prezident İlham Əliyevin "Vətəndaşlar dövlətə deyil, dövlət vətəndaşlara xidmət etməlidir" prinsipini rəhbər tutması həyata keçirilən idarəetmə islahatlarında, ilk növbədə, ölkə vətəndaşlarının maraq və mənafelərinin önə çəkilməsini bir daha təsdiq edir. İnstitusional islahatlar dövlət məmurları tərəfindən ölkə vətəndaşlarına göstərilən xidmətin daha da təkmilləşməsinə və yaxşılaşdırılmasına yönəldilmişdir.

Ölkə rəhbərliyi tərəfindən tətbiq edilən idarəetmə texnologiyasının əsas cəhətlərindən biri hər bir məmurun fəaliyyətinin əldə edilmiş konkret nəticələr əsasında qiymətləndirilməsidir. Fəaliyyətin nəticələrə görə qiymətləndirilməsi prinsipi bir qayda olaraq, dövlət məmurlarının öz işinə daha

məsuliyyətlə yanaşması ilə nəticələnir, digər bir tərəfdən də dövlət idarəetmə aparatının daha səmərəli və məhsuldar işləməsinə zəmin yaradır.

Prezident İlham Əliyev 2003-cü ildə Nazirlər Kabinetinin ilk iclasında yeni təsdiq etdiyi hökumət üzvlərinə müraciət edərək demişdir: "Mən bildirmək istəyirəm ki, hər birinizin gələcək fəaliyyəti nəticələrdən asılı olacaqdır. Bütün sahələrdə nəticələr olmalıdır... Hamıdan tələb edirəm ki, öz işinə məsuliyyətlə yanaşsın və öz vəzifə borcunu vicdanla yerinə yetirsin"[11].

Bu gün idarəetmə sistemində aparılan dəyişikliklər idarəetmə texnologiyasında müasir üsul və formaların tətbiq edilməsinə, bəzi dövlət orqanlarında mövcud olan süstlük və ətalətin aradan qaldırılmasına, onların koordinasiyasının daha səmərəli və çevik təşkil edilməsinə, dövlət qulluğunun müasir tələblərə uyğun qurulmasına yönəldilmişdir.

Dövlət başçısı artıq ölkənin sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı təxirəsalınmaz vəzifələr müəyyən edib. Bunu, əslində, iqtisadi quruculuq prosesinin yeni mərhələsinin vəzifələri də hesab etmək olar. Bu vəzifələrin dövlət orqanları tərəfindən uğurla yerinə yetirilməsi ölkə vətəndaşları qarşısında nə qədər şərəflidirsə, bir o qədər də məsuliyyətlidir.

Müəyyən edilmiş hədəflərə çatmaq üçün görülən işlərə peşəkar yanaşmadan başqa, həm də komanda prinsipinə ciddi riayət edilməsi tələb olunur. Komanda prinsipi heç də hər bir dövlət məmurunun eyni cür düşünməli olduğunu deyil, ölkənin inkişafının strateji istiqamətləri ilə bağlı vahid mövqe nümayiş etdirmələrini, qarşıya qoyulan məqsəd və vəzifələrin reallaşdırılması naminə bütün səylərini səfərbər etmələrini nəzərdə tutur.

Öz fəaliyyətini siyasi müstəvidəki konyunktur dəyişiklikləri üzərində quran, daha çox qeyri-səmimiliyi, süst və ətalətli fəaliyyəti ilə seçilən, komanda prinsipini qətiyyən gözləməyən məmurlarla Azərbaycanın inkişafı naminə müəyyən edilmiş ali məqsədlərə çatmaq üçün vaxt baxımından çox böyük itkilərə yol verə bilərik. Bu baxımdan Prezident İlham Əliyev yerli sahibkarlarla görüşü zamanı dövlət məmurlarının vahid komanda şəklində çalışmasının vacibliyini heç də təsadüfən söyləməmişdir: "Azərbaycanın gözəl gələcəyi var. Azərbaycanda sabitlik var. Azərbaycanda gözəl insan potensialı var, çox peşəkar insanlar var. Əlbəttə, siyasi iradə də var. Əgər biz hamımız hərə öz yerində bu istiqamətdə vahid bir komanda kimi çalışsaq, əminəm ki, yaxın zamanlarda Azərbaycanda sahibkarların qarşısında heç bir problem olmayacaqdır"[12].

Prezident İlham Əliyevin çıxışları və söylədiyi fikirlər əsasında onun kadr siyasətinin konturlarını da görə bilərik. Cənab Prezident müsahibələrinin birində qeyd edir: "Hesab edirəm ki, Azərbaycanda çox güclü kadr potensialı yaranıbdır. Bu potensialı, peşəkar insanları qorumaq lazımdır. Sizə deyim ki, onlar Azərbaycanda o qədər də böyük sayda deyillər. Əlbəttə, hər bir məmura, hər bir vəzifəli şəxsə eyni gözlə baxıram. Mən ayrı-seçkilik eləmirəm və hesab edirəm, kim öz vəzifə borcunu ləyaqətlə yerinə yetirirsə, əlbəttə, öz işinə davam etməlidir".

Hər bir məmur kadr məsələsində dövlət maraqlarına uyğun meyarları əsas götürməli və öz fəaliyyəti ilə kadr siyasətinə kölgə salmamalıdır. Ayrı-ayrı məmurların kadrlara münasibətdə özbaşınalığı, cılız və subyektiv yanaşması nəticəsində kadr potensialının itirilməsinə imkan verməmək olmaz.

Azərbaycanda institusional islahatların mahiyyətinin, onun məqsəd və vəzifələrinin düzgün qiymətləndirilməsi struktur dəyişikliklərinin uğurla aparılmasının həlledici şərtlərindən biridir. Lakin müşahidələr göstərir ki, idarəetmə islahatlarının "fəlsəfəsi" ilə bağlı bir-birindən fərqli təsəvvürlər mövcuddur.

İdarəetmə islahatları, bir qayda olaraq, yalnız azad iqtisadiyyatın inkişafına və bürokratik meyillərin aradan qaldırılmasına, çevik idarəçiliyə və koordinasiyaya şərait yaratdığı halda iqtisadi və təşkilati baxımdan müsbət nəticələr əldə olunur. Ümumiyyətlə, dövlət idarəetmə sistemində islahatlar ağrılı və çətin prosesdir. Lakin siyasi hakimiyyəti güclü və sabit olan ölkələrdə iqtisadi islahatlar və struktur dəyişiklikləri rəvan bir şəkildə həyata keçirilir. Çünki hakimiyyətin siyasi gücü həmin islahatların aparılması yolunda qarşıya çıxan "maneələri" asanlıqla dəf etməyə imkan verir.

Bütün postsosialist ölkələri və keçmiş İttifaq respublikaları kimi Azərbaycan da bazar iqtisadiyyatına keçid prosesinə qəbul edilmiş ümumi "reseptlər" əsasında başlamışdır. Bu mənada transformasiya dövrünü yaşayan ölkələrdə iqtisadi islahatların gedişi və onun mərhələləri bir-birindən, demək olar ki, fərqlənmirdi. Başlıca fərq həmin ölkələrin seçmiş olduğu tənzimləmə və idarəetmə modelindədir. Sözsüz ki, iqtisadi potensialı, sənaye strukturu, milli iqtisadi maraqları, geopolitik mövqeyi, yeni iqtisadi münasibətlərin formalaşması sürəti bir-birindən fərqli olan ölkələrin tənzimləmə modeli və idarəetmə sistemi də eyni ola bilməz. Buna görə də Prezident İlham Əliyev tərəfindən Azərbaycanda sosial-iqtisadi inkişafın spesifik xüsusiyyətlərini və mövcud reallıqlarını nəzərə alan iqtisadi tənzimləmə modeli və idarəetmə sistemi qurulmuşdur.



Dövlət idarəetmə sisteminin yenidən qurulması prosesində diqqət yetirilməli mühüm məsələlərdən biri idarəetmə islahatlarının iqtisadi islahatların tempi ilə düzgün əlaqələndirilməsidir. Yəni, idarəetmə sisteminin restrukturizasiyası ilə yeni iqtisadi sistemin formalaşması bir-birini tamamlamalıdır. Bu baxımdan ölkəmizdə idarəetmə sisteminin təkmilləşdirilməsi iqtisadi islahatların gedişi ilə sinxronlaşdırılır və bu da, öz növbəsində, iqtisadiyyatın səmərəli tənzimlənməsinə əlverişli şərait yaradır.

Dövlət idarəetmə sistemində islahatların yeni mərhələsi artıq reallaşmaqdadır. Struktur islahatlarının uğurla nəticələnməsi dövlət orqanlarının hüquq və səlahiyyətləri ilə məsuliyyətlərinin balanslaşdırılmasından, idarəetmə sistemində şəffaflığın, iqtisadiyyatda isə debürokratizasiyanın təmin edilməsindən asılıdır. Bu isə son nəticədə dövlət qurumları ilə biznes sektoru arasında münasibətlərin daha sağlam əsaslar üzərində qurulmasına şərait yaradır.

İqtisadiyyatın liberallaşdırılması və yeni iqtisadi münasibətlərin formalaşması, dövlət sektoru ilə xüsusi sektor arasında nisbətin dəyişməsi öz-özlüyündə dövlətin iqtisadi funksiyalarını müəyyən etmir. İstər Qərbi, istərsə də Şərqi Avropa ölkələrinin təcrübəsi göstərir ki, bu ölkələrin iqtisadi inkişafı eyni prinsiplərə əsaslansa da, dövlətin iqtisadiyyatdakı rolu bir-birindən fərqlənir. Belə bir fərq, hər şeydən əvvəl, hər bir dövlətin öz qarşısına qoyduğu vəzifələrin və bu vəzifələrin həyata keçirilməsi üçün seçilmiş olan üsul və vasitələrin müxtəlifliyindən irəli gəlir.

Dövlət idarəetmə aparatının yenidən təşkili Azərbaycan Respublikasının Konstitusiyasına və ölkəmizin dövlət quruculuğu sahəsində əldə etdiyi uğurlara əsaslanaraq, yeni iqtisadi düzənin prinsiplərini, müstəqil dövlətimizin qloballaşan dünyaya inteqrasiyasının bugünkü reallıqlarını, milli iqtisadiyyatımızın inkişaf meyillərini, nəhayət, formalaşmaqda olan iqtisadi sistemin tələblərini nəzərə almaqla həyata keçirilir.

İdarəetmə sistemində islahatları ayrı-ayrı dövlət orqanlarının ləğvi və ya birləşdirilməsi, yaxud da yeni strukturların yaradılması kimi xarakterizə etmək olmaz. İnstitusional islahatlar birinci növbədə dövlət strukturlarının tənzimləyici rolunun gücləndirilməsini və onların fəaliyyətinin səmərəliliyini təmin etməlidir. Bu, heç də bürokratik meyillərin dərinləşdirilməsi demək deyil. Əksinə, idarəetmə sistemində aparılan islahatlar dövlət idarəetmə orqanlarının debürokratizasiyasına, iqtisadiyyatda dövlət inhisarçılığının aradan qaldırılmasına şərait yaratmalıdır.

İdarəetmə islahatları ayrı-ayrı dövlət orqanlarının əsasnamələrinə yenidən baxılmasını və onların ciddi şəkildə ekspertizadan keçirilməsini tələb edir. Belə ki, iqtisadi yönümlü dövlət orqanlarının bir çoxunun fəaliyyətində bir-birini təkrarlayan funksiyalar və vəzifələr mövcuddur. Qüvvədə olan əsasnamələrin yenidən hazırlanması iqtisadiyyatın idarə edilməsi sahəsində təkrarçılığı aradan qaldıra bilər. Dövlət orqanlarının təşkilati strukturunu vahid meyar və prinsiplərlə formalaşdırmaq məqsədi ilə nazirlik və komitələr, agentlik və xidmətlər üzrə yeni nümunəvi əsasnamənin hazırlanması da məqsədəuyğundur.

Azərbaycanın dövlət idarəetmə aparatında nəzərdə tutulan dəyişikliklər ölkənin mövcud reallıqlarına cavab verməklə yanaşı, həm də Əsas Qanunumuzun tələblərinə uyğun olaraq həyata keçirilir. Konstitusiyaya əsasən, ali icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur. Dövlət idarəetmə aparatı da bu prinsipə uyğun olaraq fəaliyyət göstərməli və təkmilləşdirilməlidir.

Hesab edirik ki, Azərbaycanda prezidentli respublika üsuli-idarəsinin seçilməsi iqtisadi sistemin transformasiyasının və radikal iqtisadi islahatların həyata keçirilməsinin sürətləndirilməsi baxımından özünü doğrultmuşdur. Təsadüfi deyildir ki, bir çox ekspertlər keçid mərhələsində olan ölkələr üçün prezidentli respublikaya əsaslanan dövlət idarəçiliyini daha məqsədəuyğun hesab edirlər.

Azərbaycan Respublikasının Konstitusiyası iqtisadi idarəçilik sahəsində ali hakimiyyət və dövlət orqanlarının hüquq və səlahiyyətlərini, əsas vəzifələrini dəqiq müəyyən etmişdir. Belə ki, ali icra hakimiyyəti - Azərbaycan Respublikasının Prezidenti dövlətin iqtisadi və sosial proqramlarını təsdiq etməklə sosial-iqtisadi siyasəti müəyyən edir. Nazirlər Kabineti Azərbaycan Respublikası Prezidentinin yuxarı icra orqanı kimi dövlət proqramlarının icrasını, yəni ölkə başçısı tərəfindən müəyyən edilmiş iqtisadi siyasətin həyata keçirilməsini təmin edir. Mərkəzi icra hakimiyyəti orqanları isə öz səlahiyyətləri daxilində müvafiq proqramların reallaşdırılmasında iştirak edir, dövlətin ayrı-ayrı sahələr üzrə müəyyən edilmiş siyasətini həyata keçirir.

Məlum olduğu kimi, "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktı 2016-cı il sentyabrın 26-da keçirilmiş ümumxalq səsverməsində (referendumda) qəbul edilmişdir. Konstitusiya islahatları çərçivəsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və vitse-prezidentləri institutu yaradılmışdır. Xüsusilə də Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixli Sərəncamı ilə Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi ölkəmizin dövlət idarəçiliyi tarixində yeni mərhələnin əsasını qoydu. Bu təyinat ali dövlət idarəçiliyinin təkmilləşdirilməsi və daha da gücləndirilməsi, hüquqi dövlət quruculuğu prosesinin sürətləndirilməsi, dövlət idarəetmə orqanlarında qərarların operativ qəbulu, sosial-humanitar sahədə dövlət siyasətinin uğurla həyata keçirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

Ölkə iqtisadiyyatının sürətlə yeniləşdiyi bir vaxtda iqtisadi yönümlü dövlət orqanlarının fəaliyyətinin səmərəli koordinasiyasının təmin edilməsi xüsusi aktuallıq kəsb edir. Dövlət idarəetmə sistemində islahatlar, hər şeydən əvvəl, iqtisadi idarəetmə və tənzimləmə "yükü"nün dövlət orqanları arasında "səmərəli" və "ədalətli" bölgüsünə yönəldilməlidir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən iqtisadi məsələlərə sistemli və kompleks şəkildə baxılması islahatların gedişinə mane olan amillərin, iqtisadiyyatımızın zəif nöqtələrinin vaxtında aşkar edilməsində həlledici rol oynayır. Belə bir yanaşma iqtisadi siyasəti hazırlayan və koordinasiya edən strukturlara daha səmərəli işləmək üçün əlverişli şərait yaradır.

İnstitusional islahatların mühüm istiqamətlərindən biri antikorrupsiya tədbirlərinin həyata keçirilməsidir. 2004-cü ildə "Korrupsiyaya qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi bu sahədə hüquqi bazanı formalaşdırmaqla yanaşı, həm də hakimiyyətin korrupsiya ilə mübarizədə siyasi iradəsini nümayiş etdirdi.

Həmin ildə Prezident İlham Əliyev "Korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı"nı (2004-2006-cı illər) təsdiq etdi. Proqramda korrupsiyanın qanunun aliliyinə, dövlət idarəçiliyinin səmərəli fəaliyyətinə, iqtisadi inkişafa təhlükə yaratdığı qeyd olundu və korrupsiyaya qarşı mübarizədə ümumi dövlət siyasətinin həyata keçirilməsinin vacibliyi bir daha bəyan edildi.

Dövlət Proqramının icra müddəti bitdikdən sonra Prezident İlham Əliyev 2007-ci ildə "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"-nı və onun həyata keçirilməsi ilə bağlı 2007-2011-ci illər üçün Fəaliyyət Planını təsdiq etmişdir. Bu strategiyaya əsasən, korrupsiyaya qarşı mübarizənin institusional mexanizminin təkmilləşdirilməsi, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətində şəffaflığın artırılması və bu sahədə dövlət siyasətinin davamlı olaraq həyata keçirilməsi nəzərdə tutulurdu.

Şəffaflığın artırılması ilə bağlı beynəlxalq təşəbbüslərə öz töhfəsini verə bilmək üçün ölkəmiz 2011-ci ildə Açıq Hökumət Tərəfdaşlığına qoşulmuşdur. Prezident İlham Əliyev dövlət idarəçiliyində şəffaflığın və səmərəliliyin təmin edilməsi məqsədi ilə "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"-nı təsdiq etdi. Bu çərçivədə həyata keçirilən tədbirlərin davamlılığını təmin etmək üçün 2016-2018-ci illəri əhatə edən yeni fəaliyyət planı da qəbul edildi.

Açıq hökumət prinsiplərindən biri olan ictimai iştirakçılığın genişlənməsi üçün qanunvericilik bazasını təmin edən "İctimai iştirakçılıq haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu dövlət orqanları yanında ictimai şuraların yaradılmasını, ictimai əhəmiyyət kəsb edən qanun və qərar layihələrinin müzakirəsində və dövlət orqanlarının fəaliyyətində vətəndaş cəmiyyəti institutlarının yaxından iştirakına şərait yaratmışdır.

İdarəetmə sistemində şəffaflığın təmin edilməsi üçün dövlət idarəçiliyində müasir informasiya texnologiyalarının imkanlarından maksimum istifadə edilməsi tələb olunur. Son illər inzibati prosedurlar və dövlət orqanlarının göstərdikləri xidmətlərin elektronlaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirilmişdir. 2017-ci ildə 91 qurum elektron hökumət portalı vasitəsilə 438-dək elektron xidmət göstərmişdir.

Dövlət idarəçiliyində şəffaflığın təmin edilməsində "ASAN xidmət"in yaradılması xüsusi əhəmiyyət kəsb edir. "ASAN xidmət" – Azərbaycan Respublikasında dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin həyata keçirilməsini təmin edən mərkəzdir. 2013-cü ildən fəaliyyətə başlayan "ASAN xidmət" BMT-nin 2015-ci ildə "Dövlət Xidmətləri Mükafatına" layiq görülmüşdür. "ASAN xidmət"ə indiyə qədər edilən müraciətlərin sayı 20 milyonu keçib.

İdarəetmə islahatları, ilk növbədə, hökumətin iqtisadi blokunu əhatə edir. Bu isə tamamilə təbii qəbul edilməlidir. Belə ki, iqtisadi yönümlü dövlət orqanlarının təşkilati strukturu və funksiyaları yeniləşməkdə olan iqtisadiyyatın tələblərinə uyğunlaşdırılmalıdır. Yeni iqtisadi şəraitdə iqtisadiyyatın idarə edilməsi və tənzimlənməsi köhnə idarəçilik prinsiplərinə əsaslana bilməz.

## DÖVLƏT NƏZARƏTİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

Hər bir ölkədə idarəetmə və dövlət nəzarəti sisteminin xüsusiyyətlərini mövcud iqtisadi münasibətlərin xarakteri müəyyənləşdirir. Bu mənada ölkəmizdə bazar münasibətlərinin tədricən formalaşması, iqtisadiyyatın liberallaşması dövlət idarəetmə və nəzarət sistemində keyfiyyət dəyişikliklərinə səbəb olmuş və onun fəaliyyətinə yeni məzmun vermişdir.

İstənilən iqtisadi sistem özünə uyğun idarəetmə və tənzimləmə mexanizminin yaradılmasını tələb edir. Nəzarət sistemi isə dövlət idarəetmə sisteminin tərkib hissəsi və onun bir qolu olduğuna görə hüquqi dövlət, demokratik cəmiyyət və azad iqtisadiyyat kimi prinsiplər bu sistemdə də nəzərə alınmaya bilməz.

Əgər planlı təsərrüfat sistemində dövlət idarəetmə aparatı iqtisadiyyat üzərində total nəzarət funksiyasını yerinə yetirirdisə, yeni mərhələdə dövlət orqanları daha çox tənzimləyici rol oynamalıdırlar. Nəzarət funksiyaları isə ciddi şəkildə reqlamentləşdirilməlidir.

Heydər Əliyev dövlət nəzarəti sisteminin yenidən təşkilinə xüsusi diqqət yetirirdi. Ümummilli liderin imzaladığı iki mühüm sənəd – "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" 1996-cı il 17 iyun tarixli və "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişaf etdirilməsi sahəsində süni maneələrin aradan qaldırılması haqqında" 1999-cu il 7 yanvar tarixli fərmanlar bir çox hallarda "nəzarətsizliyə" səbəb olan dövlət nəzarəti sistemində radikal dəyişikliklərin əsasını qoydu.

Məhkəmənin qərarı olmadan hüquq-mühafizə orqanlarının sahibkarlıq fəaliyyətinə müdaxiləsi qadağan edildi. Vergilər Nazirliyinin səyyar vergi yoxlamalarının sayı azaldıldı, işçi heyəti 40 faiz ixtisar edildi. Yerli icra hakimiyyəti orqanlarının nəzarət qurumları ləğv olundu.

Dövlət nəzarəti sistemində aparılan əsaslı dəyişiklikləri heç də dövlət nəzarətinin yumşaldılması və ya aradan qaldırılması kimi xarakterizə etmək olmaz. Dövlət heç bir halda qanunların pozulmasına, dövlət əmlakı və vəsaitinin dağıdılmasına, mənimsənilməsinə göz yuma bilməz. Əksinə, milli iqtisadiyyatını formalaşdıran bir ölkə kimi Azərbaycanda dövlət nəzarəti daha da sərtləşdirilməli idi. Bu sərtlik isə "məqsədli" əsassız yoxlamaların aparılması ilə deyil, qanun pozuntularının aşkar edilməsi və onun nəticələrinin aradan qaldırılması ilə müəyyən edilir. Bir sözlə, nəzarət sistemində aparılan islahatlar dövlət nəzarətinin yumşaldılmasına yox, onun təkmilləşdirilməsinə, səmərəliliyinin artırılmasına və bu sistemin bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən təşkilinə yönəldilmişdir.

Dövlət nəzarəti sistemində aparılan islahatların zəruriliyini və bu sahədə müşahidə edilən dəyişikliklərin xarakterini müəyyən etmək üçün yaxın keçmişimizə - amirlik iqtisadiyyatının təcrübəsinə nəzər salmalıyıq.

Bazar münasibətlərinə əsaslanan iqtisadi sistemdən fərqli olaraq, mərkəzləşdirilmiş planlı təsərrüfat sistemində dövlət nəzarəti iqtisadiyyatın bütün sahələrini əhatə etməklə total xarakter daşıyırdı. Əsas nəzarət obyekti olan dövlət müəssisələrinin fəaliyyəti tamamilə reqlamentləşdirilmişdir. Onlar yalnız dövlət sifarişlərinin icraçıları kimi fəaliyyət göstərirdilər. Sahibkarlıq fəaliyyəti, ticarət vasitəçiliyi, valyutanın və qiymətli kağızların alqı-satqısı qanunvericiliklə qadağan edilmişdir. Bu sahədə hər hansı bir fəaliyyət son nəticədə cinayət məsuliyyətinə səbəb olurdu. Qadağaların çox olması nəzarətin miqyasını da genişləndirmişdi.

Son illər ölkəmizdə həyata keçirilən institusional islahatlar çərçivəsində dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi istiqamətində ardıcıl və kompleks tədbirlər görülməkdədir. Belə ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli Qanununa əsasən, sahibkarlıq sahəsində aparılan yoxlamalar 2 (iki) il müddətinə dayandırılmışdır. Qanuna görə, bu müddətdə yalnız vergi yoxlamaları, insanların həyat və sağlamlığına, qida təhlükəsizliyinə və dövlətin maraqlarına mühüm təhlükə yaradan hallar üzrə yoxlamalar aparıla bilər. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 noyabr tarixli Fərmanı ilə sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması müddəti 2021-ci il yanvarın 1-dək uzadılmışdır.

Müqayisə üçün qeyd edək ki, yoxlamaların sayı onun dayandırılmasından əvvəl 2 il ərzində 120 mindən çox idisə, yoxlamaların dayandırıldığı növbəti 2 il ərzində bu rəqəm 200-dən az olmuşdur.

İqtisadiyyatın geniş miqyasda liberallaşdığı, sahibkarlıq fəaliyyəti üçün qadağaların aradan qaldırıldığı bir vaxtda dövlətin iqtisadi subyektlər üzərində total nəzarəti artıq praktiki baxımdan mümkün deyil. Yeni şəraitdə dövlətin iqtisadi nəzarəti əsasən maliyyə nəzarəti xarakteri daşımalıdır. Bu cür nəzarət, öz növbəsində, maliyyə intizamının artırılmasını, mülkiyyət formasından asılı olmayaraq, bütün iqtisadi subyektlərin dövlət qarşısında maliyyə öhdəliklərinin yerinə yetirilməsini, ölkənin maliyyə təhlükəsizliyini təmin etməlidir.

Maliyyə nəzarətini yalnız büdcə-vergi nəzarəti ilə məhdudlaşdırmaq olmaz. O, valyuta, gömrük və bank nəzarətini də əhatə etməklə maliyyə resurslarının formalaşması, bölgüsü və istifadə edilməsi prosesinin qanuniliyinə, məqsədəuyğunluğuna və səmərəliliyinə nəzarət edilməsi sahəsində dövlət orqanlarının və auditor təşkilatlarının həyata keçirdikləri tədbirlərin məcmusudur. Sistemli maliyyə nəzarətinin təşkili aşağıdakı şərtlərin yerinə yetirilməsindən asılıdır:

***- birincisi, maliyyə nəzarətinin subyektləri, yəni hansı qurumların nəzarət edəcəyi konkret müəyyən edilməli;***

***- ikincisi, maliyyə nəzarətinin obyektləri, yəni hansı qurumlara nəzarət ediləcəyi konkretləşdirilməli;***

***- üçüncüsü, nəzarətin predmeti – nəyə nəzarət olunduğu dəqiqləşdirilməli;***

***- dördüncüsü, nəzarətin prinsipləri, metod və metodologiyası, texnika və texnologiyası müəyyənləşdirilməlidir.***

Maliyyə nəzarətinin sistemliliyini təmin etmək üçün ən əsas şərt nəzarətin nəticələri üzrə konkret qərarların qəbul edilməsidir. Yəni, maliyyə nəzarətinin başlanğıc və son nöqtəsi olmalı və onların hər ikisi bir-birini tamamlamalıdır.

Maliyyə nəzarətinin əsas istiqamətlərindən birini büdcə nəzarəti təşkil edir. Maliyyə nəzarətindən fərqli olaraq, büdcə nəzarətinin miqyası məhduddur. Belə ki, büdcə nəzarəti əsasən dövlət sektorunu, dövlətin maliyyə vəsaitlərindən istifadə edən müəssisə və təşkilatları əhatə edir. Milli iqtisadiyyatını formalaşdıran bir ölkə üçün büdcə nəzarəti və onun səmərəli təşkili xüsusi əhəmiyyət kəsb edir. Dövlət özünün funksiyalarını maneəsiz və normal bir şəkildə həyata keçirmək və sosial-iqtisadi prosesləri çevik tənzimləmək imkanına malik olmalıdır. Bu imkanların reallaşması isə dövlət vəsaitinin həcmi ilə müəyyən olunur. Dövlətin malik olduğu maliyyə resursları nə qədər çox olarsa, onun sosial-iqtisadi proseslərə təsir etmək imkanları da geniş olar. Bu mənada ölkəmizdə büdcə nəzarəti bir tərəfdən maliyyə resurslarından səmərəli və qənaətlə istifadə edilməsini təmin etməli, digər tərəfdən də büdcə mədaxilinin artırılması üçün mövcud olan ehtiyatları aşkar etməlidir.

Dövlət idarəetmə sisteminin səmərəliliyi həm də dövlət vəsaitlərinin istifadə olunması vəziyyəti ilə bağlıdır. Buna görə də son illərdə büdcə sistemi, dövlət satınalmaları və büdcə vəsaitlərinin təyinatı üzrə istifadəsi ilə bağlı qanunvericilik təkmilləşdirilmiş, hesabatlılıq və şəffaflığın artırılmasını, maliyyə inzibatçılığının gücləndirilməsini nəzərdə tutan dəyişikliklər edilmişdir.

Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulmuş tapşırıqların, qanunvericiliklə müəyyən olunmuş vəzifə və funksiyaların icrasını təmin etmək üçün son illər Azərbaycan Respublikasının Hesablama Palatası tərəfindən bir sıra addımlar atılmaqdadır. Nəzarət funksiyalarının gücləndirilməsi dövlətin ali audit qurumuna yol verilmiş maliyyə və prosedur nöqsanlarının müəyyən edilməsinə sistemli yanaşmanı tətbiq etməklə yanaşı, həmin nöqsanların nəticələrinin aradan qaldırılması ilə bağlı təsirli tədbirlərin həyata keçirilməsinə imkan yaratmaqdadır. Belə ki, son illərdə nəzarət tədbirlərinin nəticəsi kimi dövlət büdcəsinə bərpa edilmiş vəsaitlərin həcmi xeyli artmışdır.

Dövlət vəsaitləri üzərində ictimai nəzarət mexanizmlərinin səmərəliliyi hesabatlılığın və şəffaflığın təmin olunması ilə də sıx bağlıdır. Bu istiqamətdə Hesablama Palatasının kənar dövlət maliyyə nəzarəti orqanı kimi atdığı addımlar, xüsusilə də nəzarət tədbirləri ilə bağlı məlumatların ictimailəşdirilməsi, tərtib olunmuş rəylərin və hesabatların açıqlanması, vətəndaşlara QHT və KİV tərəfindən yönəldilmiş sorğuların cavablandırılması, rüblük bülletenlərin nəşri beynəlxalq standartların nəzərə alınması baxımından olduqca əhəmiyyətlidir.

Atılan addımlar Hesablama Palatasının ali audit qurumları icmasında yerini möhkəmləndirməklə yanaşı, beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin yüksəlməsinə xidmət etməkdədir. Qeyd etmək yerinə düşər ki, Beynəlxalq Büdcə Tərəfdaşlığı Təşkilatının Açıq Büdcə İndeksi–2017 hesabatında Azərbaycan Respublikasının Hesablama Palatasının dövlət büdcəsinə nəzarət sahəsində fəaliyyətini 100 ballıq şkala üzrə 83 balla qiymətləndirmişdir.

Dövlət vəsaitlərindən istifadə edən və ya dövlət mülkiyyətində olan müəssisə və təşkilatlara maliyyə nəzarəti daha da sərtləşdirilməlidir. Nəzərə almaq lazımdır ki, bu cür müəssisələr özəl şirkətlərdən fərqli olaraq israfçılığa meyilli olurlar. Dövlət vəsaitlərindən qənaətlə istifadəni təmin etmək üçün dövlət büdcəsi vəsaitlərinin konkret proqram və layihələr üzrə ayrılması təcrübəsi genişləndirilməlidir.

Maliyyə nəzarəti sistemində vergi nəzarəti orqanlarının üzərinə böyük məsuliyyət düşür. Müasir dövrdə vergi siyasəti yalnız fiskal funksiyaları yerinə yetirmir, o, həm də iqtisadi inkişafın stimullaşdırıcı aləti kimi çıxış edir. Bu baxımdan vergi orqanlarının fəaliyyəti sahibkarlığın inkişafını dəstəkləməlidir. Vergi xidmətində peşəkar və təmiz kadrlara üstünlük verilməli, vergi əməkdaşlarının yüksək səviyyəli xidmət göstərməsi üçün onlara normal iş rejimi yaradılmalıdır.

Vergi sisteminə hörmət və inamın artırılması üçün ciddi addımlar atılmalı, vergiödəyiciləri ilə münasibətlər qarşılıqlı hörmət və etimada əsaslanmalıdır. Vergi uçotunun dəqiq aparılması, auditin real funksiyasının bərpa olunması, vergilərin yığılmasından vergilərin ödənilməsinə keçidin təmin edilməsi yeni mərhələdə vergi nəzarəti orqanlarının xüsusi diqqət yetirməli olduqları fəaliyyət istiqamətləri olmalıdır.

Maliyyə nəzarəti sistemində ölkənin iqtisadi sərhədlərini qoruyan gömrük orqanlarının da xüsusi yeri vardır. Mövcud qanunvericiliyə əsasən gömrük orqanları dövlət icra hakimiyyəti sistemində hüquq-mühafizə orqanı statusuna malik olsa da, onlar daha çox vergi və valyuta nəzarəti funksiyası daşıyırlar. Bu baxımdan Dövlət Gömrük Komitəsi özünün tənzimləyici və fiskal funksiyalarını digər maliyyə nəzarəti orqanları ilə uzlaşdıraraq həyata keçirməlidir.

"Gömrük sistemində islahatların davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 4 mart tarixli Sərəncamına əsasən, elektron gömrük xidmətlərinin daha da genişləndirilməsi, gömrük rəsmiləşdirilməsi zamanı tələb olunan sənədlərin və prosedurların sayının minimuma endirilməsi, malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsi üçün "Yaşıl dəhliz" və digər buraxılış sisteminin yaradılması istiqamətində ciddi tədbirlər görülmüşdür.

2016-cı il aprel ayının 4-dən etibarən gömrük prosedurlarının daha da sadələşdirilməsi, gömrük xidmətlərinin göstərilməsində şəffaflığın təmin edilməsi və xarici ticarət əməliyyatlarının liberallaşdırılması məqsədi ilə elektron bəyanetmə sisteminin tətbiqinə başlanmışdır. Azərbaycanda bank nəzarətini müasir dövrün tələblərinə uyğun qurmadan maliyyə nəzarəti sistemini təkmilləşdirmək qeyri-mümkündür. Nəzərə almalıyıq ki, bir çox qeyri-qanuni maliyyə əməliyyatlarının aparılması, "çirkli" pulların rəsmi dövriyyəyə cəlb edilməsi, vergidən yayınma və sair bu kimi bir çox hallar çevik bank nəzarətinin olmaması ilə əlaqədardır.

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli Fərmanına əsasən Maliyyə Bazarlarına Nəzarət Palatası yaradılmışdır. Palata kreditorların, investorların və sığortaolunanların hüquqlarını qoruyan qurumdur. Ölkənin qiymətli kağızlar bazarının, investisiya fondu, bank və sığorta fəaliyyəti sahələrinin çevikliyinin və şəffaflığının təmin edilməsi, eyni zamanda, bu sahələrdə tənzimləmə və nəzarətin həyata keçirilməsi, maliyyə sektorunun dayanıqlığının qorunub saxlanılması Palatanın missiyasına daxil olan əsas vəzifələrdir.

Maliyyə nəzarətinin əsas istiqamətlərindən biri kimi valyuta nəzarətinə xüsusi diqqət yetirilməlidir. Valyuta nəzarəti orqanları gizli valyuta dövriyyəsinin aradan qaldırılması, xarici valyutanın ölkədən qanunsuz olaraq çıxarılmasının qarşısının alınması və ölkənin valyuta ehtiyatlarından səmərəli istifadə edilməsi sahəsində təsirli tədbirlər görməlidirlər.

Ölkədə müstəqil audit xidmətini inkişaf etdirmədən, onun fəaliyyətini təkmilləşdirmədən maliyyə nəzarətinin müasir dövrün tələblərinə uyğun qurulması qeyri-mümkündür. Bu sahənin inkişaf etdirilməsi, öz növbəsində, yüksəkixtisaslı auditor kadrların hazırlanmasını, audit xidmətinə tələbin artırılması üçün zəruri şəraitin yaradılmasını tələb edir. Maliyyə nəzarəti sisteminin təkmilləşdirilməsi statistikanın və mühasibat uçotunun beynəlxalq standartlara uyğunlaşdırılması ilə paralel həyata keçirilməlidir.

Maliyyə nəzarətinin səmərəliliyini təmin etmək üçün bu sahədə çalışan kadrların sosial problemlərinin həlli də diqqət mərkəzində saxlanılmalıdır. Nəticələrə görə mükafatlandırma sisteminin tətbiqi maliyyə nəzarətinin səmərəliliyini təmin edə bilər. Nəzarət orqanlarının fəaliyyətinin elektronlaşdırılmasına, bu sahədə müasir telekommunikasiya sistemlərindən, informasiya texnologiyalarından geniş istifadə edilməsinə xüsusi diqqət yetirilməlidir.

Dövlət nəzarəti sistemində islahatların uğurla davam etdirilməsi bu sahədə görülən işlərin iqtisadi islahatların gedişi və dövlət idarəetmə sisteminin təkmilləşdirilməsi vəzifələri ilə əlaqələndirilməsini tələb edir.



## AZƏRBAYCANDA NEFT SEKTORUNUN ÜSTÜN İNKİŞAFI "PATOLOGİYA"DIRMI?

Dünya təcrübəsi göstərir ki, milli iqtisadiyyatını formalaşdırmaqda olan ölkələrin iqtisadi inkişafı ilkin mərhələdə sənayenin bir və ya iki aparıcı sahəsindən asılı vəziyyətdə olur və həmin sahələr ölkədəki problemlərin həllində mühüm rol oynayır. Azərbaycanda da inkişaf üçün lokomotiv funksiyasını məhz hasilat sənayesi yerinə yetirməli oldu. Bu baxımdan maneələrə və təzyiqlərə baxmayaraq, ulu öndərin siyasi iradəsi və qətiyyəti nəticəsində 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması ölkədə iqtisadi inkişafın əsasını qoydu. Beləliklə, Azərbaycan həm də özünün siyasi və iqtisadi diplomatiya tarixində böyük bir uğuruna imza atmış oldu. Əldə edilmiş bu nailiyyət sonrakı mərhələdə Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri kimi transmilli layihələrin reallaşması ilə tamamlandı.

"Əsrin müqaviləsi" böyük siyasi əhəmiyyətə malikdir. Belə ki, onun imzalanması dövlət müstəqilliyimizin təsdiqi kimi qiymətləndirilməlidir. Bu müqavilə Azərbaycanın regionda geostrateji mövqeyini gücləndirmiş, dünyanın aparıcı dövlətləri ilə əlaqələrimizin daha da inkişafına, siyasi və iqtisadi diplomatiya sahəsində müstəqil dövlət kimi manevretmə imkanlarımızın genişlənməsinə şərait yaratmışdır.

"Əsrin müqaviləsi"nin iqtisadi əhəmiyyəti də çoxşaxəlidir. Belə ki, bu müqavilə ilə Azərbaycanın enerji təhlükəsizliyinin əsası qoyuldu. Xarici investisiyaların cəlb edilməsi üçün yaşıl işıq yandırıldı. Ölkəmiz regional və beynəlxalq iqtisadi inteqrasiya prosesində daha yaxından iştirak etməyə başladı.

Hər bir ölkənin təbii sərvəti iqtisadi inkişaf üçün zəmin yaratsa da, onun həlledici şərti kimi çıxış etmir. Nə qədər təzadlı görünsə də, dünyanın zəif inkişaf etmiş ölkələrinin əksəriyyəti təbii ehtiyatları zəngin olan ölkələrdir. Belə bir təzad həmin ölkələrdə mövcud iqtisadi potensialın reallaşdırılmasını təmin edə bilən səmərəli iqtisadi sistemin yaradılmamasının nəticəsidir.

Ulu öndər Heydər Əliyev məhz böyük şəxsiyyətlərə xas olan uzaqgörənliklə neft gəlirlərinin idarə edilməsinin ən səmərəli modelini yaratdı. Bu model neftin ixracından əldə edilən bütün valyuta gəlirlərinin Dövlət Neft Fondunda toplanılmasını və həmin vəsaitlərin mərkəzləşdirilmiş qaydada istifadə edilməsini nəzərdə tutur. Məhz bu mexanizmə əsaslanaraq, Prezident İlham Əliyev "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nı təsdiq etmişdir.

Dövlət Neft Fondu neft gəlirlərinin səmərəli idarə edilməsi baxımından əsas rol oynamaqla, mühüm makroiqtisadi funksiyanı yerinə yetirir: birincisi, neft dollarının ölkənin valyuta bazarına təzyiq göstərməsinə imkan vermir; ikincisi, dividendlər hesabına öz həcmini artıraraq, yığım funksiyasını həyata keçirir; üçüncüsü, ölkənin maliyyə sistemini "neftsiz iqtisadiyyat rejimi"nə uyğunlaşdırır.

Hazırda neft sektoru ölkənin makroiqtisadi göstəricilərinə, xüsusilə də iqtisadi artım tempinə, sənaye istehsalının, ixracatın və xarici investisiyaların həcminə, büdcə və valyuta gəlirlərinə həlledici təsir göstərməkdədir. Bu isə təbiidir.

Prezident İlham Əliyev hələ Dövlət Neft Şirkətinin birinci vitse-prezidenti olduğu dövrdə neft sektorunun üstün inkişafı ilə bağlı qeyd etmişdir ki, Azərbaycan iqtisadiyyatı hələ uzun illər neft amilindən asılı olacaq və bu, reallıqdır. Onun fikrincə, neft amili 1994-cü ildən ölkənin iqtisadi inkişafına böyük təkan verib və bu gün iqtisadiyyatın bütün sahələrinin neft sektoru kimi inkişaf etməli olduğunu düşünmək sadəlövhlük olardı. Hesab edirik ki, tamamilə məntiqi və populizmdən uzaq olan bu fikir Azərbaycan iqtisadiyyatının mövcud reallıqlarına əsaslanır.

Neft sektorunun milli iqtisadiyyatımızda payının artması məsələsinə gəlincə, onun sənaye strukturundakı payına nəzər yetirmək kifayət etmir. Bunun üçün həm də iqtisadi quruculuq prosesindəki meyilləri, makroiqtisadi vəziyyəti, ölkənin real iqtisadi potensialını, milli sənayemizin xüsusiyyətlərini, beynəlxalq konyunkturanın tələb və şərtlərini, nəhayət keçid dövrünün reallıqlarını nəzərə almalıyıq.

Ümumiyyətlə, Azərbaycanda neft sənayesinin üstün inkişafını aşağıdakı amillər və səbəblər şərtləndirir:

Birincisi, müstəqil dövlət quruculuğu mərhələsində olan və milli iqtisadiyyatını inkişaf etdirməyə çalışan hər bir ölkə yaxın, orta və uzunmüddətli dövr üçün müəyyənləşdirilmiş vəzifələri yerinə yetirməkdən ötrü zəruri maliyyə vəsaitinə malik olmalıdır. Bu vəsaiti isə bir qayda olaraq, sabit gəlir mənbəyi və bunu əldə etmək üçün təminatlı satış bazarı olan ölkələr əldə edə bilir. İlkin mərhələdə Azərbaycan üçün təminatlı bazar məhz enerjidaşıyıcıları, xüsusilə də neft və neft məhsulları bazarı oldu.

İkincisi, sənaye üzrə əsas fondların 44 faizi neft və qaz hasilatı sektorunun payına düşür. Əsas fondların belə bir bölgüsü həm də sənaye istehsalının sahəvi strukturunu, yəni neft sənayesinin üstün inkişafını şərtləndirir.

Üçüncüsü, iqtisadiyyatın liberallaşdırıldığı və kapitalın sərbəst hərəkətinə şərait yaradıldığı ölkələrdə investisiyalar gəlirlilik səviyyəsi daha yüksək olan sahələrə yatırılır. Bu baxımdan rentabelliyinə görə neft sənayesinin digər sahələrdən fərqlənməsi xarici kapitalın əsasən bu sektorda cəmlənməsinə səbəb olur.

Azərbaycanda neft sənayesinin üstün inkişafı öz-özlüyündə ölkə iqtisadiyyatı üçün təhlükə doğurmur. Eyni zamanda, indiki mərhələdə neft sektorunun milli iqtisadiyyatımızda, o cümlədən sənayenin və ya ixracatın strukturunda payının artması patoloji proses deyil. Əksinə, bu meyil milli iqtisadiyyatda müsbət dəyişikliklərə – valyuta gəlirlərinin artmasına, xarici kapitalın cəlb edilməsinə, qeyri-neft sektorunun və infrastruktur sahələrinin inkişafına şərait yaradır.

Etiraf etmək lazımdır ki, təbii sərvətlər bir çox ölkələrin əsas gəlir mənbəyinə çevrilərək onların iqtisadiyyatında mühüm rol oynamışdır. Lakin son 20 ildə yüksəkixtisaslı işçi qüvvəsi, yüksək texnologiyalar, nou-hau təbii resurslarla müqayisədə milli sərvəti artırmağın daha etibarlı amili kimi çıxış etməkdədir.

Prezident İlham Əliyev neft və qeyri-neft sektorunun inkişafının əlaqələndirilməsinə böyük önəm verir: "Əgər biz öz iqtisadiyyatımızı şaxələndirməsək, yalnız və yalnız iqtisadiyyatımızı neft amili üzərində qursaq, böyük uğurlar əldə edə bilmərik. Neft hasil edən ölkələrin təcrübələri onu göstərir ki, bu, yanlış yoldur. Biz neft amilindən, sadəcə olaraq, çox məharətlə istifadə etməliyik və edirik ki, Azərbaycanın iqtisadiyyatı hərtərəfli inkişaf etsin və gələcək nəsillərimiz neft amilindən asılı olmasın"[13].

Heydər Əliyevin müəllifi olduğu neft strategiyası hazırda Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməkdədir. Belə ki, Azərbaycanda iki milyard ton neft hasil olunması milli iqtisadiyyatımızın inkişaf tarixinin əlamətdar hadisəsi kimi 2017-ci ildə təntənəli şəkildə qeyd edilmişdir. Eyni zamanda, neft hasilatı sahəsində davamlılığı təmin etmək məqsədi ilə "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək uzadılmışdır. Müqavilənin icrası nəticəsində Azərbaycana 40 mlrd. ABŞ dolları həcmində investisiyanın yatırılacağı nəzərdə tutulur. Yeni imzalanmış müqavilə Azərbaycan üçün daha da əlverişlidir. Belə ki, müqavilə imzalanandan sonra ölkəmizə xarici investorlar tərəfindən 3,6 mlrd. ABŞ dolları həcmində bonus ödəniləcəkdir. Həmçinin, Dövlət Neft Şirkətinin payı 11,6 faizdən 25 faizə qaldırılır və Azərbaycana çatacaq mənfəət neftinin səviyyəsi 75 faiz təşkil edəcəkdir.

Uğurlu neft strategiyasının reallaşması nəticəsində 2003-cü ilin sonuna 815,6 milyon ABŞ dolları təşkil etmiş Dövlət Neft Fondunun vəsaiti 2018-ci il 31 yanvar tarixinə 37,5 mlrd. ABŞ dollarına çataraq, təqribən 46 dəfə artmışdır. 2003-2018-ci illər ərzində Dövlət Neft Fonduna, ümumilikdə, 138,4 mlrd. ABŞ dolları həcmində vəsait daxil olmuşdur.

Prezident İlham Əliyev "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nı təsdiq etmişdir. "Qara qızıl"ın "insan kapitalı"na çevrilməsi siyasəti çərçivəsində yüzlərlə azərbaycanlı gəncin dünyanın qabaqcıl ölkələrinin aparıcı universitetlərində təhsil ilə bağlı xərcləri Dövlət Neft Fondunun vəsaiti hesabına maliyyələşdirilmişdir. Dövlət Proqramının maliyyələşdirilməsi məqsədi ilə 2008-2017-ci illər ərzində Dövlət Neft Fondu tərəfindən ayrılmış 205,5 milyon manat vəsait hesabına 3300-dən çox tələbə xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almışdır.

Azərbaycan təkcə neft deyil, həm də qaz ixrac edən ölkəyə çevrilməkdədir. Başqa sözlə, ölkəmizin ixracat potensialı yaxın gələcəkdə neftlə yanaşı, həm də qazın hesabına artacaq. Eyni zamanda, Azərbaycan qonşu ölkələrin neft-qaz resurslarını dünya bazarlarına ötürən tranzit dövlətə çevrilməkdədir. Bütün bunlar Azərbaycan iqtisadiyyatını dünya neft bazarındakı mənfi konyunktur dəyişikliklərindən sığortalayan və risklilik dərəcəsini azaldan amillər olaraq qiymətləndirilə bilər. Məsələ burasındadır ki, dünya bazarında neftin və qazın qiyməti heç də eyni vaxtda artıb-azalmır.

Hələ 1990-cı illərin ortalarında bəzi xarici diplomatlar və ekspertlər qeyd edirdilər ki, Azərbaycan yaxın perspektivdə "böyük imkanları olan yoxsul ölkə"dən zəngin təbii sərvəti və sağlam iqtisadiyyatı olan varlı ölkəyə çevriləcək. Artıq bu gün Azərbaycan inkişaf etməkdə olan ölkələr sırasındadır. Əminik ki, neft strategiyasının qətiyyətlə davam etdirilməsi ölkəmizin iqtisadi potensialının reallaşmasında, iqtisadi inkişafla sosial inkişafın əlaqələndirilməsində bundan sonra da həlledici rol oynayacaq.

**(davamı gələn sayımızda)**

# Ekoloji təmiz arı məhsullarının istehsalına başlanılıb



Bütün dünyada ekoloji təmiz arı məhsullarının istehsalına başlanılıb. Xüsusi sertifikatlaşdırma təşkilatları var ki, onlar istehsalçı ilə müqavilə bağlayıb öz şərtlərini təklif edirlər.
Bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycan Arıçılar Assosiasiyasının sədri Bədrəddin Həsrətov bildirilib.
Onun sözlərinə görə, bu məqsədlə 1 il keçid dövrü verilir ki, fermer öz təsərrüfatını sertifikat verən təşkilatın şərtlərinə uyğunlaşdırsın: "Fermerlər qarşısında bir neçə şərt qoyulur ki, onlardan biri də kimyəvi dərmanlardan istifadə olunmamasıdır. Bu şərtlər yerinə yetirilərsə, həmin məhsula beynəlxalq təşkilatlar tərəfindən orqanik sertifikat verilir".
Lakin sertifikatların verilməsi prosesindəki tariflərin yüksək olduğunu söyləyən B.Həsrətovun fikrincə, xərclərin azaldılması üçün bu işdə maraqlı olan bir neçə arıçı birləşməlidir. "Biz orqanik sertifikat alsaq, Avropa bazarına çıxmaq imkanı əldə edəcəyik, dünyanın istənilən ölkəsində isə orqanik bala ehtiyac var", - deyə assosiasiya sədri vurğulayıb.

# Azərbaycanda məişət tullantıları hesabına 170,3 milyon kVt-saat elektrik enerjisi istehsal edilib

2017-ci ildə Azərbaycanda ev təsərrüfatlarında, müəssisə və təşkilatlarda 2775,5 min ton və ya əvvəlki illə müqayisədə 8,1 faiz az tullantı əmələ gəlib. Onların 56,8 faizini bərk məişət tullantıları, 43,2 faizini isə müəssisələrin istehsal fəaliyyəti nəticəsində yaranmış müxtəlif növ tullantılar təşkil edib.
Trend-in məlumatına görə, ötən il yaranmış 1576,5 min ton və əvvəlki illərdən qalmış 1,5 min ton bərk məişət tullantılarının 33,4 faizi enerji əldə edilməsi məqsədilə istifadə olunub, 0,5 faizi ölkə daxilində satılıb, 66,1 faizi isə zibilxanalara daşınıb.
Məişət tullantılarından istifadə hesabına 170,3 milyon kVt-saat elektrik enerjisi istehsal edilib ki, bu da 2017-ci ildə alternativ enerji mənbələri üzrə istehsal olunmuş elektrik enerjisinin 65,8 faizini təşkil edir.



# Pərakəndə ticarət dövriyyəsində 2,6 faiz artım olub

2018-ci ilin yanvar-mart aylarında pərakəndə ticarət dövriyyəsi əvvəlki ilin eyni dövrünə nisbətən müqayisəli qiymətlərlə 2,6 faiz artaraq, 8,5 milyard manat olub.
Dövlət Statistika Komitəsindən bildirilib ki, hesabat rübündə pərakəndə ticarət şəbəkəsindən bir istehlakçı orta hesabla ayda 289,2 manatlıq və ya 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 16,8 manat çox əmtəə alıb.
Həmçinin, birinci rübdə pərakəndə ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri 2017-ci ilin eyni dövrünün səviyyəsini real ifadədə 2,0 faiz üstələyərək 4304,1 milyon manata çatıb.
Hesabat rübündə bir istehlakçı pərakəndə ticarət şəbəkəsindən orta hesabla ayda 146,6 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 142,6 manatlıq qeyri-ərzaq məhsulları alıb.



# Çindən 6 min qutu ipəkqurdu toxumları gətirilib

Bu gün Çin Xalq Respublikasından ölkəmizə daha 6 min qutu ipəkqurdu toxumları (qrena) gətirilib və inkubasiya qoyulması üçün Qax Damazlıq İpəkçilik Stansiyasına yola salınıb.
Kənd Təsərrüfatı Nazirliyindən Trend-ə verilən məlumata görə, inkubasiya müddəti başa çatdıqdan sonra əldə olunacaq ipəkqurdları dağlıq ərazidə yerləşən rayonların kümçülərinə əvəzi ödənilmədən paylanılacaq.
Ümumilikdə, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən tender müqaviləsi əsasında Çin Xalq Respublikasından iki mərhələdə 13000 (on üç min) qutu yüksək keyfiyyətli hibrid ipəkqurdu sənaye toxumlarının (qrena) alınaraq aran, dağlıq və dağətəyi rayonların kümçülərinə paylanılması nəzərdə tutulub. Artıq aprel ayının 17-də ilkin mərhələdə 7000 (yeddi min) qutu yüksək keyfiyyətli hibrid ipəkqurdu sənaye toxumları (qrena) alınaraq respublikaya gətirilib və Qax Damazlıq İpəkçilik Stansiyasına inkubasiyaya qoyulub. Qax Damazlıq İpəkçilik Stansiyasında inkubasiyaya qoyulmuş barama toxumlarından əldə olunacaq ipəkqurdlarının bölgü əsasında yaxın günlərdə respublikanın 40 rayonunun kümçülərinə əvəzi ödənilmədən paylanılması nəzərdə tutulub. Son iki ildə Çin Xalq Pespublikasından ölkəmizə 2,5 milyon ədəd tut tingləri gətirilib, bölgü əsasında əvəzi ödənilmədən baramaçılıq rayonlarına paylanılıb və bu rayonların ərazilərində yeni intensiv tipli tut (çəkil) bağlarının salınması təmin edilib.
Qeyd edək ki, dövlət istehsal olunmuş yaş baramanın növündən asılı olmayaraq, hər kiloqramına 5 manat subsidiya verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu tərəfindən maliyyələşdirilən "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" layihəsi çərçivəsində çap olunub.

# Məqsədimiz bazarda brend yaratmaqdır

## PAŞA Bank topdan və pərakəndə satıcılar üçün şəbəkə yaradır

Ötən il - 2017-ci ilin iyul ayında ölkəmizin qabaqcıl korporativ bankı olan PAŞA Bank iş adamlarını dəstəkləmək məqsədilə bazara yeni məhsul – Tacir Kartı təqdim etmişdi. Bu kart ticari prosesdə iştirak edən iki tərəf: həm pərakəndə satıcılar, həm də topdan satıcılar (distribütorlar) üçün çox faydalıdır. Bildiyimiz kimi, əksər pərakəndə satış obyektləri malları iri distribütorlardan alırlar. Sahibkar aldığı malların dəyərini nağd və ya bank köçürməsi yolu ilə həyata keçirir. Tacir Kartı əldə edən pərakəndə satış obyektinin sahibi isə topdansatış şirkəti malları onun qapısına gətirən zaman malların dəyərini bu kartla ödəyə bilir.
Tacir Kart öz istifadəçiləri üçün unikal şəbəkə yaratmaqla, tərəflər arasında ticari əlaqələrin genişlənməsini və operativliyini təmin edir.
Aprelin əvvəllərində isə PAŞA Bank biznes üçün unikal kart məhsulu olan Tacir Kartı daha da təkmilləşdirdiyini bəyan etdi. Bu məhsulun üstünlükləri barədə oxucuları məlumatlandırmaq üçün PAŞA Bankın Kiçik və orta sahibkarlıq üzrə bankçılıq departamentinin direktoru Aleksandr Qolovkoya müraciət edib, ondan müsahibə aldıq. Həmin müsahibəni nəzərinizə çatdırırıq.

***- Belə bir fikir mövcuddur ki, ticarət sektoru nümayəndələri üçün ödəniş kartlarının əldə edilməsi və POS-terminallardan istifadə əlavə xərcdir. Bu, həqiqətən, belədirmi?***

- Əgər biz bir çox illər əvvələ, nağdsız ödənişlərin olmadığı vaxtlara qayıtsaq, görərik ki, o vaxt bu, tamamilə normal idi. İndi isə biz inkişaf edirik, iqtisadiyyat inkişaf etdikcə nağdsız hesablaşmalar da gündəlik həyatımıza daxil olur. Bu proses çərçivəsində, yəni nağdsız ödənişlərə, nağdsız hesablaşmalara keçdikcə, müştəri pul prosesləri nöqteyi-nəzərindən qənaət etmək imkanı qazanır. Bu qənaət inzibatçılıqda, hesabatlılıqda, nağdsız hesablaşmalarda özünü göstərir. Nağdsız hesablaşmalara keçid zamanı keyfiyyətli nəzarətə imkan yaranır, yalnız bank xidmətlərinə xərc çəkməklə üstünlüklər qazanmaq mümkün olur.

***- Bəs, ticarət sektorunun nümayəndələri və distribütorlar üçün Tacir Kartın üstünlükləri hansılardır?***

- Birincisi, bu kart qısa müddət ərzində nağdsız dövriyyələrə keçmək üçün alətlər yaradır, həm distribütorların, həm də sahibkarların vaxtına qənaət edir. Bu, daha asan hesabatlılığı təmin edir, onu təkmilləşdirir. Digər tərəfdən, Tacir Kartın PAŞA Bankın POS-terminalı ilə istifadəsinin ən önəmli üstünlüklərindən biri 18% ƏDV-nin avtomatik hesablanması ilə yanaşı, həmin məbləğin avtomatik çıxarılaraq sahibkarın adından vergi depoziti hesabına göndərilməsi imkanıdır. Nağdsız ödənişlərin qəbulunu topdansatış şirkətinin POS-terminalı ilə təchiz olunmuş ekspeditorlar özləri həyata keçirir.
Bundan başqa, bu məhsulla distribütor şirkətlər pul dövriyyəsini nağdsız formaya keçirmək, alıcı sahibkarlara fərdi kredit limitləri müəyyən etmək, şirkətin pul axınlarını effektiv idarə etmək, POS-terminal vasitəsi ilə bütün ödənişləri qəbul etmək, nağd vəsaitin qəbulu ilə əlaqəli risklərin azalması, vəsaitin həmin gün hesaba köçürülməsi imkanlarını əldə edəcəklər.
Pərakəndə satıcılar (sahibkarlar) üçün isə bu kart avtomatlaşdırılmış ƏDV ödənişi imkanı yaradır ki, bu da onların öz işlərini nağdsız şəkildə, daha çevik və operativ olaraq həll etməyə zəmin yaradır. Bundan başqa, sahibkarlar kredit xəttindən faydalanmaq, hər distribütor şirkət üzrə fərdi kredit limitlərinin müəyyən olunması, hesaba "Pay point" ödəmə terminalları vasitəsi ilə mədaxilin edilməsi, vaxta qənaət, kartın bütün digər biznes ehtiyacları üçün rahat istifadəsi imkanlarını qazanacaqlar.
Bütün bu cəhətlərinə görə Tacir Kart yerli bazarda tamamilə unikal məhsuldur və heç bir bankda belə üstünlük, demək olar ki, yoxdur.

***- Tacir Kartla işləyən sahibkarlar hansı risklərdən azad olacaq?***

- Sahibkarlar nağd pulla işləyən zaman böyük risklərə məruz qalır. Xüsusilə, bu risk böyük məbləğdə nağd pulla işləyən zaman meydana çıxır. Burada həm də insan amilini qeyd etmək istərdim. Pulların daşınmasına, yəni inkassasiya xərclərinə ehtiyac qalmır. Belə ki, pulları hər hansı elektron formada, nağdsız formatda saxlamaq daha rahatdır və onlara tam nəzarət etmək mümkündür. Bütün bunlarla yanaşı, nağdsız hesablaşmalar istifadəçiyə müəyyən üstünlük əldə etmək imkanı yaradır. Artıq heç bir şübhə qalmır ki, bu, xüsusilə biznes üçün olduqca aktualdır.
Bir sözlə, PAŞA Bank məhsul və xidmətləri işləyib hazırlayarkən, əsas meyar olaraq müştərilərinin biznes ehtiyaclarını rəhbər tutur.

***- Sizin bu məhsul – Tacir Kart bazarda nə dərəcədə populyardır?***

- Biz Tacir Kartın populyarlaşmasını artıq birinci mərhələ çərçivəsində gördük. Bu, məhsulun baza elementləri qoyulan ilkin, necə deyərlər, start mərhələsi idi. Biz bazarda məhsulumuza böyük maraq görürük. Bizim bu məhsulun satışı üzrə böyük planlarımız var. Bəzən nağdsız ödənişlər, prinsip etibarilə korporativ plastik kartlar seqmentində, bütövlükdə, nağdsız ödənişlərə keçid meyli vardır ki, bu da trenddə olmaq və bu məhsulu fəal inkişaf etdirmək deməkdir. Bizim məqsədimiz təkcə verilmiş kartların sayını artırmaq deyil, başlıca məqsədimiz nəinki iri müştərilərə, həm də məhsulumuzu alan xırda müştərilərə fayda gətirən qərarların həyata keçirilməsidir. Biz onların "daily banking"ini (gündəlik bankçılıq) daha rahat, faydalı və sürətli etməyə çalışırıq. Bir sözlə, məqsədimiz bazarda müştərilərimiz üçün "tacir şəbəkəsi" qurmaqdır.

***- PAŞA Bank yaxın gələcəkdə hansı yeni kart məhsullarını təqdim etməyi planlaşdırır?***

- PAŞA Bank bu gün bazarda olduqca populyar olan geniş kart məhsulları spektrinə malikdir. Bu, həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda, xarici ölkələrdə geniş istifadə olunan korporativ kartlardır. Bizim gömrük ödənişləri üçün nəzərdə tutulan kartımız - Gömrük Kartı vardır. Hazırda bizdə əvvəlcədən ödənilmiş kartlar üzərində iş gedir. Bütövlükdə, bütün layihələr və məhsullar korporativ müştərilərin rahatlığına, onların öz tərəfdaşları ilə, əməkdaşları ilə qarşılıqlı əlaqəsinə, istənilən növ ödənişlərinin rahat və tez həyata keçirilməsinə yönəldilmişdir. Biz daim müştərilərlə işləyirik, daim onların ehtiyaclarını öyrənir, bunun nəticələri əsasında təkliflərimizi işləyib hazırlayırıq. Hazırda biz müştərilərimizin öz tərəfdaşları ilə qarşılıqlı münasibətlərini, bu sahədə olan ehtiyaclarını və tələbatlarını öyrənir və məlumat toplayırıq.

***- 2017-ci ilin yekunlarına görə, təmsil etdiyiniz Bank yerli bazarda "Nağdsız ödənişlərin həyata keçirilməsi sahəsində lider bank" kimi tanınmışdır. Bu uğura necə nail olmusunuz?***

- Hazırda nağdsız ödənişlər çox böyük sürət alaraq inkişaf edir. Bazarda 2016-2017-ci illərdə nağdsız ödənişlərdə 50% artım dinamikası müşahidə olunub. Korporativ bank olaraq kartlarımızın sayı gündən-günə artır, kartlarımız ilə keçirilən transaksiyaların sayı artır və bu, müştərilərimizin bizə olan etibarından xəbər verir, həmçinin tənzimləyicilər tərəfindən yüksək qiymətləndirilir.
Güclü cəhətlərimizdən olan yüksəkixtisaslı işçi heyətimiz sayəsində malik olduğumuz ekspertizamız bizə imkan verir ki, qlobal, regional, yerli kontekstdə baş verən prosesləri təhlil edərək, müştərilərimizin ehtiyaclarını öyrənərək, onların biznes ehtiyaclarına uyğun məhsul və xidmətlər təqdim edək.
Bir məqamı da vurğulamaq istərdik ki, ölkənin aparıcı korporativ bankı olaraq, biz ölkədə həyata keçirilən rəqəmsal təşəbbüslərin miqyasının genişləndirilməsi səylərinə töhfə vermək üçün rəqəmsal transformasiya prosesinə start vermişik. 2018-2020-ci illəri əhatə edən inkişaf strategiyamızda da məqsədlərdən biri mütərəqqi rəqəmsal kanalları inkişaf etdirməklə müştəri əməliyyatlarının 90%-ni alternativ rəqəmsal kanallar vasitəsilə həyata keçirməkdir.
-Ətraflı müsahibəyə görə təşəkkür edirik!

***Müsahibəni aldı:***
***Yeganə Məmmədova***



*__Qısa arayış:__ 2007-ci ildə yaradılmış PAŞA Bank Azərbaycanın aparıcı korporativ bankıdır. Bank investisiya bankçılığı, ticarətin maliyyələşdirilməsi, aktivlərin idarə edilməsi də daxil olmaqla əsas maliyyə xidmətlərini, o cümlədən kiçik və orta sahibkarlıq üçün tam xidmətlər spektrini təklif edir. PAŞA Bank iqtisadiyyatın qeyri-neft sektorunun əsas sahələrinə - aqrobiznes, nəqliyyat, tikinti, ticarət və Azərbaycan iqtisadiyyatının müxtəlifliyinə öz töhfəsini verən digər sahələrə xidmət göstərir.*
*PAŞA Bank kapital səviyyəsinə görə Azərbaycanın ən iri özəl bankıdır, həmçinin aktivlərinin həcminə görə TOP-3 özəl banklar siyahısına daxildir. 31 dekabr 2017-ci il tarixinə olan göstəricilərə görə, bankın kapitalı 433 milyon AZN-dən artıq, aktivlərinin səviyyəsi isə 3 582 milyon AZN-dən çox olmuşdur. Aparıcı banklardan biri olan PAŞA Bank davamlı və stabil inkişaf göstəricilərini daha da möhkəmləndirməkdədir.*

26 aprel - 2 may 2018-ci il

# Azərbaycanda metallurgiya məhsullarının ixrac potensialının yüksəldilməsi

Hazırda - iqtisadi islahatların keçirildiyi bir dövrdə ölkəmizin iqtisadiyyatı qarşısında duran mühüm vəzifələrdən biri qeyri-neft sektorunun inkişaf etdirilməsidir. Davamlı iqtisadi inkişafa nail olan ölkəmiz həyatımızın bütün sahələrində yeni uğurlar qazanmaqdadır.

Ötən hesabat ilinin sosial-iqtisadi yekunlarına əsasən, ölkəmizdə ümumi daxili məhsul artaraq 70135,1 mln. manat təşkil etmişdir. Sosial-iqtisadi proqnozlara istinad edərək söyləmək olar ki, dövlətimiz 2020-ci ilə qədər bu göstəricinin 100 mlrd. dollara çatdırılmasını hədəfləyir. Milli iqtisadiyyatımızda prioritet sayılan qeyri-neft sektorumuz 2,5, o cümlədən kənd təsərrüfatı (k/t) 4,1% artmışdır. Valyuta ehtiyatlarımız 2017-ci ildə 4,5 mlrd. dollar artmış və hazırda 42,5 mlrd. dollar təşkil edir. Ölkə iqtisadiyyatına 14,6 mlrd. dollar sərmayə qoyulmuşdur. İxrac potensialımız ölkə üzrə 19% artmış, qeyri-neft ixracatımız isə 24% çoxalmışdır.

Milli iqtisadiyyatımızın 2-ci əsas qolu olan qeyri-neft sektorunun strukturuna nəzər salsaq, onun, əsasən: ticarət və sosial xidmərlər; tikinti; rabitə və telekommunikasiya; nəqliyyat; qeyri-neft sənayesi və k/t-dan ibarət olduğunu görərik. Bu sektorda qeyri-neft sənayesi önəmli rol oynayır ki, bu da öz növbəsində bir neçə sənaye sahələrinə ayrılır (sxem 1).

Göstərmək lazımdır ki, qeyri-neft sektoruna daxil olan və qeyri-neft sənaye sahələrinin sırasında ən vacib hesab edilən sahələrdən biri də ***metallurgiya sənayesidir.*** Məhz metallurgiya sənayesi qeyri-neft sənaye sahələrinin inkişafına birbaşa təsir göstərməklə qeyri-neft sektorunun hərtərəfli inkişaf etməsinə səbəb olur. Bu sahədə istehsal olunan metal məmulatları digər sahələrdə istehlakı təmin etməklə, daxili tələbatı ödəməklə yanaşı, metallurgiya məhsullarının idxalının aradan qaldırılmasına da gətirib çıxara bilər. Qeyd edək ki, hər il daxili tələbatı ödəmək məqsədi ilə xaricdən Azərbaycan Respublikasına 1,2÷1,3 mlrd. dollar metallurgiya məhsulları idxal olunur.

**İqtisadiyyatın qeyri-neft sektoru**




Sxem 1

Azərbaycanda bol xammal bazasının, təbii resursların, metal tələbatlı sənaye və tikinti sahələrinin və təcrübəli kadr potensialının mövcudluğu ağır sənayenin, o cümlədən metallurgiya sənayesinin inkişafı üçün geniş imkanlar yaradır. Strateji sahələrdən hesab edilən metallurgiya sənayesinin inkişafında xammal bazası dəmir filizi ehtiyatlarıdır ki, bu da adıçəkilən sahənin inkişafı üçün geniş perspektivlər açır.

Dünya iqtisadiyyatına nəzər salsaq, dəmir filizi ehtiyatlarının çox hissəsinin təqribən 50 ölkəyə məxsus olduğunu görərik (98 ölkənin ərazisində bu mineral ehtiyat aşkar edilmişdir). Həmin ölkələrin sırasında, əsasən, Rusiya Federasiyasının, Avstraliyanın, Kanadanın və digər dövlətlərin öndə getdiyini müşahidə etmək mümkündür (cədvəl 1).

*Cədvəl 1*

***Dünyada dəmir filizinin cari ehtiyatları, tərkibi və orta illik istehsalı***

| № | Ölkələr | Ümumi ehtiyatlar, mln. t | Təsdiqlənən ehtiyatlar, mln. t | Xüsusi çəkisi, % | Dəmirin tərkibi, % | İstehsalı, mln. t | İstehsalda xüsusi çəkisi payı, % |
|---|---|---|---|---|---|---|---|
| ***1*** | ***2*** | ***3*** | ***4*** | ***5*** | ***6*** | ***7*** | ***8*** |
| 1 | Rusiya | 43075 | 29281 | 16,9 | 36 | 70,9 | 6,7 |
| 2 | Avstraliya | 32200 | 18000 | 10,4 | 64 | 157,1 | 14,9 |
| 3 | Ukrayna | 19387 | 16836 | 9,7 | 35 | 53 | 5 |
| 4 | ABŞ | 25000 | 16000 | 9,3 | 24 | 63 | 6 |
| 5 | Kanada | 26000 | 12000 | 6,9 | 40 | 37,3 | 3,5 |
| 6 | Braziliya | 17000 | 11000 | 6,4 | 58 | 188 | 17,8 |
| 7 | Çin | 9000 | 9000 | 5,2 | 33 | 250 | 23,7 |
| 8 | Qazaxıstan | 7392 | 5504 | 3,2 | 39 | 12,6 | 1,3 |
| 9 | Hindistan | 12000 | 5400 | 3,1 | 61 | 69 | 6,6 |
| 10 | Cənubi Afrika Respublikası | 9300 | 4000 | 2,3 | 62 | 30,7 | 2,9 |
| 11 | İsveç | 4600 | 3000 | 1,7 | 53 | 21,9 | 2 |

Cədvəldəki göstəricilərdən də göründüyü kimi, dəmir filizi ehtiyatları üzrə Rusiya, Avstraliya, Kanada, ABŞ liderlik edir. Bəzi məlumatlara görə, hazırda dəmir filizi strateji xammalı üzrə ehtiyatların real miqdarı 212 mlrd. tona çatır. Lakin alimlərin hesablamalarına görə, dünyada belə yataqlarda olan ehtiyatların miqdarı 790 mlrd. tona qədərdir. Dünya ölkələrinin 2017-ci ilə dəmir filizi hasilatında reytinqə görə sıralaması aşağıdakı kimidir:

- Avstraliya;
- Braziliya;
- Çin;
- Hindistan;
- Rusiya;
- Cənubi Afrika;
- Ukrayna;
- ABŞ;
- Kanada;
- İsveç;
- İran;
- Qazaxıstan.

Dünya ölkələrinin filiz hasilatı üzrə reytinqindən də göründüyü kimi, Çin, Braziliya, Rusiya, Hindistan məcmu olaraq bütün dəmir tərkibli metalların 80%-ni hasil edir. Metallurgiya sənayesinin xammal bazası olan dəmir filizinin çıxardılmasının necə inkişaf etməsinə nəzər salaq. Böyük ehtiyatlara malik olan ölkələrin illik filiz hasilatı üzrə müqayisəli göstəriciləri cədvəl 2-də verilmişdir.

Hasil edilən bütün dəmir tərkibli mineralların 87%-i aşağı keyfiyyətlidir (dəmirin tərkibi 16÷40%). Belə xammallar zənginləşmə tələb edir. Rusiya yüksək keyfiyyətli birləşmələrin yalnız 12%-ni hasil edir ki, bu hasilatın da 60%-dən çoxu dəmir tərkiblidir. Metallurgiya üçün daha keyfiyyətli xammal Avstraliya materikindədir (64% Fe). Cədvəl 2-dən göründüyü kimi, dəmir filizi istehsalında öndə gedən ölkələrdən biri Hindistandır. Hindistanda filiz sənayesinin durmadan artımı müşahidə olunur. Bu ölkə üzrə 2020-ci ilə göstəricilərin 35% artması proqnoz edilir. Hesablamalara görə, mövcud hasilat saxlanılarsa, bu strateji xammal ilə dünya təsərrüfatı özünü 250 il dəmirlə təmin edə biləcəkdir.

Ümumiyyətlə, metallurgiya xammalının hasilatı və satışı ilə xüsusi şirkətlər məşğul olurlar. Məsələn, Rusiyada olan belə şirkətlərdən Metallinvesti və Evrazxoldinqi göstərmək olar ki, onlar da 100 mln. tona yaxın dəmir filizi məhsulu istehsal edirlər. ABŞ-ın Geoloji xidmətinin məlumatlarına uyğun olaraq, dəmir filizinin hasilatı və istehsalı bütün dünyada daima artır. Lakin bu, beynəlxalq miqyasda insanların ehtiyaclarını tamamilə ödəmir.

Dağ-mədən və metallurgiya sənaye sahəsi inkişaf edən bir çox ölkələrdə özünün dəmir filizi resursları kifayər etmir və onlar həmin resursları xaricdən tədarük etməli olurlar. Dəmir filizi idxal edən ölkələrin sırasına Cənubi Koreya, Yaponiya, ABŞ daxil edilir. Belə ki, maşınqayırması və sənaye sahəsi inkişaf etmiş Yaponiya və Cənubi Koreyanın özünün yataqları mövcud deyildir. Bu səbəbdən də dəmir filizini hasil edərkən iqtisadi məsrəfləri azalda bilən yeni texnologiyaların tətbiq edilməsi vacibdir. Dəmir filizi yataqlarına malik olan dünya ölkələri hasil edilmiş xammalın zənginləşdirilməsinin yeni texnologiyalarını axtarmaqdadırlar. Hətta dəmir filizi hasilatı üzrə 1-ci yeri tutan Avropa Birliyi ölkələri belə bu məhsulu idxal etmək məcburiyyətindədir. Dəmir filizi idxalı əsasən ölkələr üzrə aşağıdakı kimi sıralanmışdır:

- Çin - 628,2 mln. t.;
- Yaponiya - 105,5 mln. t.;
- Cənubi Koreya - 42,1 mln. t.;
- Almaniya - 28,8 mln. t.;
- Fransa - 17 mln. t.;
- Tayvan - 14,6 mln. t.;
- Niderland - 9,8 mln. t.

İl ərzində 2,5÷3 mlrd. tona yaxın dəmir filizi hasil edilir ki, bu da dünya bazarında onun dəyərini aşağı salır. Müasir dövrdə 1 ton filizin qiyməti təqribən 40 dollara bərabər götürülür, rekord qiymət isə 2007 və 2011-ci illərdə 1 ton üzrə 180 dollar qeydə alınmışdır. Növbəti 3 ildə dəmir filizinin qiyməti tədricən azalaraq 2015-ci ildə 40 dollardan da aşağı düşmüşdür.

Milli iqtisadiyyatımıza gəldikdə isə qeyd etməliyik ki, Azərbaycan Respublikası regionda ən perspektivli metallurgiya ölkəsidir. Hələ 2001-ci ildə Bakıda istehsal gücü ildə 350 min ton olan müasir "Bakı Polad istehsal şirkəti" (Baku Steel Company) işə salınmışdır. Müasir Azərbaycan metallurgiyasında xüsusi çəkisi olan bu müəssisə hazırda da böyük uğurla fəaliyyət göstərir. H.Əliyev şirkətin açılış mərasimindəki çıxışında vurğulamışdır ki, metallurgiyanın dirçəldilməsi və inkişafı Azərbaycanın müstəqilliyinin qorunub saxlanılması üçün vacib olan dövlət əhəmiyyətli strateji məsələdir. Bu məsələnin həlli üçün respublikamızın dünya ölkələri ilə iqtisadi əlaqələrinin yaradılmasına imkan verən əlverişli coğrafi mövqeyi, zəngin enerji və xammal-material ehtiyatları, 160 ildən çox tarixi olan metallurgiya sənayesi təcrübəsi vardır.

*Cədvəl 2*

***Dəmir filizi s*ənayes*ində istehsalın müqayisəli göstəriciləri (mln. t)***

| № | Ölkələr | 2010 | 2016 | Şirkətlər | İstehsal gücü |
|---|---|---|---|---|---|
| ***1*** | ***2*** | ***3*** | ***4*** | ***5*** | |
| 1 | Çin | 900 | 1300 | Anben | 44,7 |
| 2 | Avstraliya | 420 | 875 | BHP Billiton, Fortescue Metals | 188,5 55,0 |
| 3 | Braziliya | 370 | 391 | Vale | 417,1 |
| 4 | Hindistan | 160 | 260 | | |
| 5 | Rusiya | 100 | 100 | Evrazxoldinq, Metallainvest | 56,9 44,7 |
| 6 | Ukrayna | 72 | 80 | Metinvest Xoldinq | 42,8 |
| 7 | Cənubi Afrika Respublikası | 55 | 60 | Anqlo Amerikan | 41,1 |
| 8 | Qazaxıstan | 21 | 22 | | |
| 9 | Böyük Britaniya | | | Rio Tinto ArcelorMittal | 273,7 78,9 |
| 10 | İsveç | | | LKAB | 38,5 |

Hazırda milli iqtisadiyyatımızda metallurgiya sənayesinin daha böyük perspektivləri mövcuddur. Bu da öz növbəsində digər sənaye sahələrinin - maşınqayırma, cihazqayırma, avtomobilqayırma, energetika, məişət texnikası sənayesinin və digər sahələrin inkişafına əlverişli imkan açır. Qara metallurgiya qeyri-neft sektorunun strateji sahələrindən biri sayılır. Bu sahənin müasir texnologiyaların tətbiqi ilə inkişaf etdirilməsi, dünya bazarına rəqabətqabiliyyətli məhsullar çıxara bilən yeni müəssisələrin yaradılması başlıca məsələlərdən biridir.

**(davamı gələn sayımızda)**

**İ.B.Əmirov,**
**Sumqayıt Dövlət Universitetinin baş müəllimi**

# "Excelsior Hotel & Spa Baku" otelində "Azərbaycan dizaynerləri və estrada ulduzları" adlı tədbir keçirildi



"Excelsior Hotel & Spa Baku" otelinin təşkilatçılığı ilə 2018-ci il aprelin 19-da Excelsior Hotel & Spa Baku otelinin Əlincə zalında Baku Fashion Clubun növbəti yığıncağı keçirildi. Klubun təşkilatçısı Lyubov Qutorova-Poyraz, koordinatoru Renara Şəmsiyeva və mətbuat katibi Tatyana İvanayevadır. Bu dəfə mövzu "Tandemin sirləri! Azərbaycan dizaynerləri və şou-biznes ulduzları" oldu.

Klubun təşkilatçıları, necə deyərlər, "zamanla ayaqlaşamağa" çalışaraq, Facebook sosial şəbəkəsində fan-page Baku Fashion Clubda nümayiş olunan birbaşa yayım sayəsində moda sahəsində iştirakçılar, həvəskarlar və marağı olanların auditoriyasını genişləndirirlər. Çünki klubun bəyan edilmiş məqsədinin şüarı və formatı Azərbaycan modasının peşəkarlarını və həvəskarlarını birləşdirməkdir.

Həmin gecənin spikerləri kimi məşhur Azərbaycan modelyer-dizayneri, Milli geyim mərkəzi və Moda evinin rəhbəri, teatr və kino rəssamı, sənətşünaslıq üzrə fəlsəfə doktoru Gülnarə Xəlilova, modelyer-dizayner, "Zümrüd Mirzəliyeva" evinin əsasını qoymuş Zümrüd Mirzəliyeva çıxış etdilər.

Mövzunun spesifikası dərhal söhbətin istiqamətini müəyyən etdi. Xüsusən də, Gülnarə Xəlilovanı Azərbaycanın əməkdar artisti Tünzalə Ağayeva ilə uzun illərin məhsuldar əməkdaşlığı bağlayır, Zümrüd Mirzəliyeva isə hazırda populyar olan müğənni Günay İbrahimli ilə işləyir. Zümrüd Mirzəliyeva peşəkar bioqrafiyasında çoxdan tanıdığı Tünzalə xanımla da işləməyə vaxt tapıb.

Gülnarə xanım söhbətə 1999-cu ildə ilk fəaliyyəti dövründən başlayaraq, vurğuladı ki, modelyer və dizayner üçün təhsilin mühüm əhəmiyyəti vardır. O, həm estrada, həm də moda ulduzlarına start vermiş məşhur "Bakı payızı" müsabiqəsini yada saldı. Əməkdaşlığın təşəbbüskarının kim olduğu sualına cavab verən Gülnarə xanım dedi ki, ona həmişə müraciət edirlər və bu da onun yaradıcılıq fəaliyyətinə verilən qiymətin göstəricisidir. Tünzalə xanım ilə əməkdaşlıq dizayner üçün istisna hal deyil.

Zümrüd Mirzəliyeva zarafatla söhbətə başlayaraq dedi ki, onun üçün geyim yaratmaq söhbət etməkdən daha asandır. Sonra isə davam etdi ki, "ulduz-dizayner" tandeminin uğuru, hər şeydən əvvəl, etibardır. Bu fikirdə onu Gülnarə Xəlilova da dəstəklədi. Onların qeydləri bir-birini tamamlayır və bu fikirdə birləşirdi ki, hər iki tərəfin zəmanətli uğuru fərdi yanaşma və ulduzun şəxsi tərəfini görməkdir. Gülnarə xanımın sözlərinə görə, tamaşaçılar musiqi kompozisiyasının ifasını eşidənə qədər xanım müğənni səhnədə müəyyən qədər məsafə qət edir. Məhz bu an tamaşaçı ifaçının zövqü haqqında rəy verir. Zümrüd xanım isə ayrıca onu da qeyd etdi ki, geyimləri yaradarkən, onların "təyinat məqsədi"ni nəzərə almaq vacibdir. Çünki səhnə geyimi klip geyimindən fərqlənir. Fotosessiyalar isə öz seçim qaydalarını buyurur.

Gecənin yekunu – Baku Fashion Club çərçivəsində saat yarım canlı ünsiyyət oldu. Yalnız spikerlərin təxirəsalınmaz görüşləri ünsiyyət vaxtını məhdudlaşdırdı. Lakin klub öz fəaliyyətini davam edir və tezliklə növbəti görüşün mövzusu elan ediləcək və moda tərəfdarlarını Excelsior Hotel & Spa Bakunun rahat Əlincə zalında toplayacaq.

# Azərbaycan İstiqlal Muzeyinin eksponatları UNEC-də: "Cümhuriyyət 100"



UNEC-də Azərbaycan İstiqlal Muzeyinin eksponatlarından ibarət foto-sərgi keçirilir.

Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan sərgidə cümhuriyyətin qurucuları, əsgər və zabitlərinin, o cümlədən dövrün əhəmiyyətli sənədlərinin fotoları nümayiş etdirilir. Tələbələrin böyük marağına səbəb olan eksponatlar UNEC-in bütün tədris binaları, Zaqatala filialı və Maliyyə-İqtisad Kollecində də sərgiləncək.

Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinin keçirilməsi ilə bağlı UNEC-in tədbirlər planı təsdiqlənib. Sənədə əsasən, UNEC-də "AXC dövründə Azərbaycanın sosial-iqtisadi inkişafı"na həsr olunan elmi konfrans, seminar, açıq dərs və dəyirmi masalar təşkil olunur. Tədbirlər planında "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" məzunlarının "Azərbaycan Xalq Cümhuriyyəti dövründə gənclərin xaricdə təhsili" mövzusunda Forumunun keçirilməsi də nəzərdə tutulub.

# REKLAM BİZNESİNİN İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN PROBLEMLƏRİN ARADAN QALDIRILMASI



Dünyada ən çox reklam xərcləri Şimali Amerikadadır. Analitiklər hesablayıblar ki, 2017-ci ilin sonuna dünya reklam xərcləri 195,26 mlrd. dollar təşkil edəcəkdir. Lakin proqnozlara görə, 2019-cu ildə bu sahədə Asiya və Okeaniya ölkələri liderlik edəcəkdir. Həmçinin, şimali amerikalılar mobil üsullarla (videoreklam, sosial şəbəkələr, axtarış) reklama daha çox məsrəf sərf edəcəkdir və bu bazar onlarda daha çox inkişaf etmişdir. 2015-ci ildə ABŞ-da reklam xərcləri 30,2 mlrd. dollar təşkil etmişdir. Analitiklərin proqnozlarına görə, 2019-cu ildə ABŞ və Kanada mobil büdcəni iki dəfə artıracaqdır. Televiziya və mətbuat dünyanın bütün ölkələrində kütləvi medianın bütün altı növü arasında əsas yeri təşkil edir. Bütün reklam "piroqunun" təxminən 75%-i onların payına düşür.

Bəzi ölkələrdə televiziya bazarda hökmran mövqeyə malikdir – 50%-ə yaxın (İspaniya və ya İtaliya). Rusiyada isə bu, daha çoxdur (reklama 55% qoyuluş sərf olunur). Halbuki, Latın Amerikasının bir sıra ölkələrində onların xüsusi çəkisi çox deyil. Əksinə, digər ölkələrdə televiziyanın payı məhduddur. Çünki televiziya üçün reklam təklifi çox deyil, bu, çap KİV-ində daha yaxşı inkişaf edir və diversifikasiya olunur (Avropanın şimalı, Almaniya, qismən Böyük Britaniya, Fransa). ABŞ-da, Yaponiyada və Çində televiziyanın payı 50%-dən aşağıdır.

2014-cü ildə reklam xərcləri ABŞ-da 19,821 mlrd. dollar, Çində 11,621 mlrd. dollar, Braziliyada 5,397 mlrd. dollar, Rusiyada 4,026 mlrd. dollar, İndoneziyada 3,911 mlrd. dollar, Yaponiyada 3,01 mlrd. dollar, Argentinada 2,268 mlrd. dollar, CAR-da 2,067 mlrd. dollar və Böyük Britaniyada 1,883 mlrd. dollar təşkil etmişdir.

Azərbaycanda reklam işi son illər kifayət qədər sürətlə inkişaf edir. Reklam biznesində tətbiq edilən yeni texnologiyalar, aparatların təkmilləşməsi, müasir ideyalar, nou-hau və s. ölkədə reklamın beynəlxalq səviyyəyə çıxmasına imkan verir. Eyni zamanda, elə məqamlar vardır ki, onlar Azərbaycanda reklamın sürətli və səmərəli inkişafına əngəllər törədir.

Azərbaycanın reklam bazarını təhlil edərkən, aşkar olunmuşdur ki, ölkənin reklam bazarının problemlərindən biri reklamın dizaynı, kreativliyi haqqında, bütünlükdə reklamın necə görünməsi haqqında köhnə fikirli düşüncənin olmasıdır. Təəssüf ki, sahibkarlar və onların nümayəndələri artıq mövcud olan reklam ənənələrini qoruyaraq, eksperimentlərə çox həvəssiz gedirlər. Bu isə öz növbəsində sferanın yoxsullaşmasına gətirib çıxarır. Əhali yeni təcrübəni və məlumatı əldə etmir. Onları artıq dəfələrlə istifadə olunan təkliflərlə cəlb etmək çətindir. Əhalinin böyük əksəriyyəti reklama inanmır, əmtəə almır. Çıxış yolu isə problemin qeyri-ordinar və orijinal həll yollarını təklif edə bilən yaradıcı xarakterli gənc kadrların və mütəxəssislərin cəlb edilməsidir. Sahibkarlar artıq səmərəli reklam haqqında öz təsəvvürlərini dəyişməli və innovasiya imkanlarını nəzərdən keçirməli, bəzi hallarda risk etməlidir. Bu zaman reklam bazarı canlanacaqdır. Nəticədə, istehlakçıların özləri təqdim edilən əmtəə və xidmətlərlə maraqlanacaq, bu isə həm reklam sferası üçün, həm də sahibkarlar üçün arzuolunan nəticələrə gətirib cıxaracaqdır.

Azərbaycanda İnternet reklamının səviyyəsinin son illər artmasına baxmayaraq, o, beynəlxalq standartlara tam cavab vermir. Lakin qeyd etmək lazımdır ki, İnternet reklamın ölkədə böyük gələcəyi var. Yaş, cins, maraq, gəlirin zəruriliyinə görə məqsədli auditoriyanın targetləşməsi, yəni hədəflənməsi imkanı mövcuddur. Bundan əlavə, İnternetdə reklamı müşayiət məktubu və təsvirlərlə göndərmək, elanların göstərilməsi tezliyini tənzimləmək, səhifələrdə lokasiyaları seçmək olar. Müasir sahibkarlar reklamda internetdən istifadə edilməsinin səmərəsi və məqsədəuyğunluğu faktını dərk edirlər və bura daha çox informasiya yayımını qoyurlar. Bu irəliləyişin ən sadə üsulu sosial şəbəkələrdə reklamdır. Bu onlayn irəliləyiş növü Azəbaycanda reklamvericilər arasında yaxşı inkişaf etmişdir.

Reklamın yaxşı işləməsindən ötrü reklam kampaniyasının strategiyasını düzgün işləyib hazırlamaq lazımdır. Təəssüf ki, Azərbaycanda sahibkarların böyük bir hissəsi vahid reklam aksiyalarından istifadə edilməsinə meyillidirlər.

Ölkədə reklam bazarının inkişafına mənfi təsir göstərən amillərdən biri reklam sferasında gənc mütəxəssislərin çatışmaması, eləcə də yüksək keyfiyyətli reklam məhsullarının istehsalı üçün avadanlığın olmamasıdır. Bununla belə, bu avadanlığın dəyəri çox yüksəkdir və bu yüksək qiymətlər əsaslı deyil (agent komissiyası istisna olmaqla). Bunun səbəblərindən biri odur ki, çox iri müştərilər xarici mütəxəssislərə müraciət etməli olurlar. Çox zaman aşkar olunur ki, yaxın xarici dövlətlərə istiqamətlənmə, bilavasitə işin hazırlığı, aparılması və bundan irəli gələn tədbirlər Bakıda məhsulu reallaşdıran agentliklərə nisbətən iki dəfə ucuz başa gəlir. Ona görə də reklam sferasında çalışacaq gənc nəslin təhlilinə daha çox resurs ayırmaq lazımdır. Digər tərəfdən, keyfiyyətli reklam avadanlığına məsrəflərin ayrılması məqsədəuyğundur.

İxtisaslaşdırılmış tədbirlərin: treninqlərin, seminarların, mühazirələrin keçirilməsi, beynəlxalq təcrübənin mübadiləsi, peşəkar ədəbiyyatla tanış olmaq və inkişaf etmək, zamanla ayaqlaşmaq vacibdir. Beləliklə, vəsaitlər ölkədə qalacaq, cəmiyyət inkişaf edəcək, nəticədə reklam sferasının özü yeni inkişaf mərhələsinə qədəm qoyacaqdır.

Reklamın, o cümlədən xarici reklamın inkişafına informasiyanın ötürülməsinin bu alətinin inhisarlaşması mane olur. Hazırda xarici reklamın bütün lokasiyalarının yalnız 15%-i özəl reklam agentliklərinə məxsusdur. Qalanları dövlətin nəzarəti altındadır. Bu fakt reklamın yerləşməsini, onun genişlənməsi imkanlarını çətinləşdirir. Deməli, sahibkarlar üçün bürokratik prosedurların yüngülləşməsini minimum səviyyəyə endirmək məqsədəuyğundur. Bu, lokasiyaların artmasına və yeni növ daşıyıcıların tətbiqinə gətirib çıxara bilər ki, bu da informasiya ötürülməsinin bu alətinin səmərəliliyinə səbəb ola bilər.

Bundan əlavə, Azərbaycanda keçirilən Avropa oyunları, İslam Həmrəylik oyunları, Formula-1, Qran-Pri yarışları və digər idman tədbirləri reklam fəaliyyətinin inkişafında irəliləyişə səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycanda reklamın müxtəlif alətlərinin yayılmasına baxmayaraq, ən çox tətbiq olunan sahə televiziyadır. Lakin sahibkarlar digər reklam vasitələrinə də diqqət yetirməlidirlər.

**(davamı gələn sayımızda)**

**F.Qarayev,**
**BDU-nun dosenti**

# "AtaBank" "Formula-1" zamanı xidmət göstərəcək

"AtaBank" ASC Azərbaycan paytaxtında keçirilən "Formula 1" Azərbaycan Qran-Prisi zamanı iş rejimi ilə bağlı məlumatı diqqətinizə çatdırır.

Bankın aşağıdakı filialları 28-29 aprel tarixlərində saat 09:00-dan – 18:00-dək xidmət göstərəcək:

- "Bakı" filialı: Neftçilər pr., 67;




Tel: (012) 437 23 71, 437 23 72;

- "Sahil" şöbəsi: Puşkin küç. 9;

Tel: (012) 598 11 36.

Filialların müvəqqəti iş rejiminə keçidi "Formula-1" Azərbaycan Qran-Prisi zamanı həm yerli müştərilərə, həm də şəhərin qonaqlarına keyfiyyətli və fasiləsiz xidmət göstərmək məqsədi ilə həyata keçirilir.

# 3 ayda Azərbaycana 151 ölkədən 629,4 min əcnəbi gəlib

Yanvar-mart ayları ərzində Azərbaycana dünyanın 151 ölkəsindən 629,4 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,4 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib.

Dövlət Statistika Komitəsindən bildiriblər ki, gələnlərin 27,4 faizi Rusiya Federasiyası, 22,1 faizi Gürcüstan, 15,8 faizi İran, 11,6 faizi Türkiyə, 4,7 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,9 faizi Ukrayna, 1,8 faizi İraq, 14,6 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslərdir. Birinci rübdə Körfəz ölkələrindən (İran istisna olunmaqla) gələnlərin sayında daha çox artım müşahidə edilib. Ötən ilin yanvar-mart ayları ilə müqayisədə ölkəmizə gələn Küveyt vətəndaşlarının sayı 7,1 dəfə, Bəhreyn və Qətər vətəndaşlarının sayı hər biri üzrə 2,7 dəfə, Səudiyyə Ərəbistanı vətəndaşlarının sayı 2,4 dəfə, Oman vətəndaşlarının sayı 1,9 dəfə, İraq vətəndaşlarının sayı 1,7 dəfə, BƏƏ vətəndaşlarının sayı 1,3 dəfə artıb. İrandan gələnlərin sayında 6,4 faiz azalma müşahidə edilib.

2018-ci ilin yanvar-mart aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 4,1 faiz azalaraq 18,6 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 6,7 faiz artaraq 204,4 min nəfər olub.

Ölkəmizə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin 63,3 faizi dəmir yolu və avtomobil, 35,9 faizi hava, 0,8 faizi isə su nəqliyyatından istifadə edib.

Birinci rübdə xarici ölkələrə gedən Azərbaycan Respublikası vətəndaşlarının sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,4 faiz azalaraq 943,3 min nəfər olub. Ölkə vətəndaşlarının 31,6 faizi Gürcüstana, 27,2 faizi İrana, 21,8 faizi Rusiyaya, 12,3 faizi Türkiyəyə, 1,8 faizi Ukraynaya, 1,5 faizi BƏƏ-yə, 3,8 faizi isə digər ölkələrə səfər edib.

# Cəlilabadda "Bakcell"in yenilənmiş Satış və Müştəri Xidməti mərkəzi təqdim edildi




Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell təklif etdiyi xidmət və məhsullarını müştərilərə daha da yaxın etmək üçün ölkənin bütün regionları üzrə öz satış və xidmət mərkəzləri şəbəkəsini genişləndirməyə davam edir. Bu fəaliyyətin davamı olaraq Cəlilabadın mərkəzində, Qurtuluş küçəsi 70 ünvanında tam olaraq yenilənmiş diler mağazası və xidmət mərkəzi (Bakcell İM) istifadəyə verilib.

Tam yeni konsepsiya əsasında qurulmuş müasir Satış və Müştəri Xidməti mərkəzində şirkətin məhsul və xidmətərinin tam çeşidi ilə yanaşı, ən son mobil cihazlar və aksesuarlar təklif edilir. Cəlilabad sakinləri yenilənmiş satış və xidmət mərkəzində "Bakcell"in bütün məhsul və xidmətləri barədə məlumat ala, mobil nömrə və istənilən cihazı əldə edə bilərlər.

"Bakcell"in innovativ və ən müasir məhsul və xidmətlərini Bakı sakinləri ilə yanaşı, Azərbaycanın bütün bölgələrində yaşayan abunəçilərə daha əlçatan etmək üçün çalışırıq. Bu regionlar sırasında Cəlilabad xüsusi yerə malikdir və burada şirkətimizin fəaliyyətinin genişləndirilməsi üçün biz əlimizdən gələni edirik", - deyə Bakcell şirkətinin baş satış direktoru Zaur Bayramov bildirib.

Bakcell şirkəti özünün yüksək keyfiyyətli xidmətlərini Azərbaycanın bütün bölgələrində yaşayan müştərilərinə təqdim etmək məqsədilə həm mobil rabitə şəbəkəsini, həm də müştəri xidməti və satış şəbəkələrini genişləndirir.

# Bakcell əlilliyi olan uşaqlar üçün inklüziv təhsil və bərabər hüquqları təşviq edir

"Bakcell Stars" KSM proqramı vasitəsilə minlərlə uşaq üçün bərabər hüquqlar təmin edilib.

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkəti BMT-nin Azərbaycan Nümayəndəliyinin "ASAN Radio" ilə hazırladığı "Qlobal məqsədlər" verilişinə dəstək göstərir. "Qlobal Məqsədlər" verilişinin növbəti buraxılışında dayanıqlı inkişaf məqsədlərinə nail olmaq işində inklüziv təhsilin rolu müzakirə edilib.



Bütün uşaqlar kimi, əlilliyi olan uşaqların da öz bacarıqlarını inkişaf etdirmək və arzularını reallaşdırmaq üçün keyfiyyətli təhsilə ehtiyacları var. Əlilliyi olan uşaqların cəmiyyətə töhfə verə biləcəyi bir çox sahə var və inklüziv təhsil bu potensialı ortaya çıxarmaqda açar rolunu oynayır. Lakin bütün dünyada əlilliyi olan uşaqlar məktəbdən və diqqətdən kənarda qalma ehtimalı ən yüksək olan insanlar arasındadır. İnklüziv təhsil sistemləri isə uşaqlara məktəbə getmək və öyrənmək üçün bərabər şans verir ki, bu da onların öz təhsil hüquqlarını və tam potensiallarını reallaşdırmasına imkan verir.

Növbəti verilişin qonaqları UNICEF-in Azərbaycandakı nümayəndəliyinin təhsil üzrə mütəxəssisi Leyla Həsənova, Təhsil Nazirliyi De-institutlaşma və Uşaqların müdafiəsi idarəsi xüsusi təhsil şöbəsinin müdiri Anar Xələfov və 138 saylı məktəbin direktoru Mirfaiq Mirheydərli olub.

"Qlobal Məqsədlər" radioverilişinin əsas məqsədi Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı məlumatlılığın artırılması, 2030-cu ilə qədər olan tədbirlər planı üzrə həyata keçirilən layihələr və dayanıqlılığın təmin olunması üçün müxtəlif strukturların və vətəndaşların üzərinə düşən vəzifələrlə bağlı ictimaiyyəti məlumatlandırmaqdır. Qeyd edək ki, 2015-ci ilin sentyabr ayında dünya liderləri tərəfindən 17 Dayanıqlı İnkişaf Məqsədi qəbul edilib. Həmin məqsədlər yoxsulluğa son qoymaq, inkişaf və insanların rifahını təşviq etmək, eyni zamanda, ətraf mühiti qorumaq üçün səylərin birləşdirilməsini nəzərdə tutur.

Aprel ayı ərzində Bakcell şirkətinin dəstəyilə "ASAN Radio"da (100FM) 5 veriliş efirə veriləcək.

Özünün "Bakcell Stars" Korporativ Sosial Məsuliyyət Proqramı çərçivəsində Bakcell şirkəti əlilliyi olan və xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər hüquqların və inklüziv təhsil imkanlarının təmin edilməsinə yönəlmiş bir çox layihələrə dəstək göstərir. Bu layihələrin bir hissəsi uşaq inkişaf mərkəzləri və inklüziv təhsil müəssisələrinə, xüsusi olaraq əlilliyi olan uşaqlar üçün hazırlanmış kompüter və digər avadanlıqların təmin edilməsini əhatə edib. Bu günə qədər Bakcell "SOS Uşaq Kəndləri", "SavetheChildren" və "Azərbaycana Birgə Yardım" kimi təşkilatlarla birgə həyata keçirilmiş lahiyələr vasitəsilə minlərlə uşağa dəstək göstərib. Bakcell inanır ki, "Hər bir uşaq bir ulduzdur!" və bərabər hüquqlara malik olmağa layiqdir!

# Azercell-in Mobil Diş Klinikası pulsuz xidməti davam etdirir




Azercell Telekom MMC-nin Mobil Diş Klinikası ehtiyacı olan ailələrə, kimsəsizlərə, məcburi köçkünlərə pulsuz xidmət göstərməyə davam edir. 2018-ci ilin ilk aylarında klinikanın həkimləri yüzlərlə ehtiyacı olan insanları pulsuz müayinə və müalicə ediblər. Yanvar, fevral və mart aylarında bu unikal layihədən Əhmədli qəsəbəsi 3 saylı uşaq evinin sakinləri və Pirşağa qəsəbəsində fəaliyyət göstərən Xocalı rayonu 2 saylı orta məktəbin 142 şagirdi yararlanıb. Qeyd edək ki, Azərbaycandakı əksər uşaq evinin stomatoloji kabinetinin olmamasını nəzərə alan Azercell Mobil Diş Klinikasını ən müasir tibbi avadanlıqla təchiz edib. Yalnız Bakıda deyil, regionlarda yaşayan kimsəsiz uşaqlara da yardım etməyi hədəfləyən Mobil Diş klinikası indiyə qədər ölkənin bir çox rayon və şəhərlərində yerləşən uşaq evləri, internat məktəbləri, uşaq kəndlərində öz xidmətlərini göstərib.

Fəaliyyət göstərdiyi 7 il ərzində layihə çərçivəsində 4000-dən çox insan Mobil Diş Klinikasının həkimləri tərəfindən müayinə edilib, ehtiyac olduğu tədqirdə müalicə alıb.

## ETİBARSIZDIR

Şirinov Elkin Əli oğlunun adına Bakı şəhəri, Səbail rayonu, Adil Babayev küçəsi 3, mənzil 3 ünvanına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılsın.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: 566 09 60**
**Faks: 514 14 27**
**Mühasibatlıq: 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500**